

# KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ, MƏŞĞULLUQ VƏ GƏLIR İMKANLARININ YAXŞILAŞDIRILMASI

# MÜNDƏRİCAT

GİRİŞ

**1.** Məcburi köçkünlüyün hüquqi – institutsional çərçivəsi

***1.1*** *Məcburi köçkünlərin imtiyazları*

***1.2*** *İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondunun yaradılması*

**2.** Beynəlxalq təşkilatların və donor ölkələrin yardımları

**3.** Məcburi köçkünlərin sosial inteqrasiyası və yeni mərhələyə keçid

***3.1*** *Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi 2019-2025-ci illər*

***3.2*** *ARDNF-in qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılmasında rolu*

***3.3*** *Məcburi köçkünlərin regionlarda məskunlaşması və sosial-mənzil şəraitinin yaxşılaşdırılması*

**4.** 2020-ci il müharibəsindən sonra yeni paradiqma: "Böyük Qayıdış" proqramı (2021-2026)

***4.1*** *"Böyük Qayıdış" proqramının konseptual əsasları*

***4.2*** *"Böyük Qayıdış - məşğulluqdan məskunlaşmaya!"*

**5.** Nəticə və təkliflər

**6.** İstifadə olunan mənbələrin siyahısı

# Xülasə

Bu araşdırma Azərbaycan Respublikasında keçmiş məcburi köçkünlərin (MK) 2016-2026-cı illər ərzində sosial-iqtisadi vəziyyətinin inkişafı, məşğulluq və gəlir imkanlarının yaxşılaşdırılması istiqamətində həyata keçirilən dövlət siyasətini və beynəlxalq əməkdaşlıq çərçivəsində icra olunan proqramları kompleks şəkildə təhlil edir. Tədqiqat Dünya Bankının 2023-cü il sorğu məlumatlarına, BMT QAK-ın 2023-cü il Qlobal Trendlər hesabatına, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il göstəricilərinə, eləcə də 2026-cı il ərzində dərc olunmuş ən son hökumət və media mənbələrinə əsaslanır. Təhlil göstərir ki, 2016-2020-ci illərdə aktiv sosial müdafiə modeli ilə xarakterizə olunan dövlət siyasəti, post-konflikt dövründə (2021-2026) "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində daha aktiv məşğulluq, peşə hazırlığı və dayanıqlı gəlir mənbələrinin yaradılmasına yönəlmiş kompleks reinteqrasiya strategiyasına çevrilmişdir. 2025-ci ilin noyabr ayına olan məlumata görə, işğaldan azad edilmiş ərazilərdə məşğulluq səviyyəsi 92%-i ötmüşdür. Bununla belə, tədqiqat bir sıra davam edən struktur problemləri, o cümlədən, Ağdam və Füzulidə məcburi köçkünlərə verilən evlərin yaşayış sahəsinin və  gənclərin qayıtmağa marağın az olması, kimi məsələləri müəyyən edir. Araşdırma problemlərin həlli üçün konkret siyasət tövsiyələri təqdim edir.



**Açar sözlər:** Qaçqın, məcburi  köçkün, məcburi köçkünlərin imtiyazları, məşğulluq səviyyəsi, mənzil şəraiti,Böyük Qayıdış

# Giriş

Azərbaycan Respublikasının müasir tarixində ən mürəkkəb humanitar və sosial-iqtisadi problemlərdən biri məcburi köçkünlərin uzunmüddətli rifahının təmin edilməsi olmuşdur. Birinci Qarabağ müharibəsi (1988-1994) nəticəsində təxminən 700,000 azərbaycanlı öz doğma yurdlarından didərgin düşmüş, ölkənin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmağa məcbur olmuşdur. Otuz ilə yaxın davam edən bu məcburi köçkünlük vəziyyəti nəticəsində 900 yaşayış məntəqəsi, 150 min ev, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi və 6 min istehsal müəssisəsi dağıdılmışdır. 2020-ci ilin payızında 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmiş, bu isə keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün tarixi imkan yaratmışdır.

2022-ci ilin dekabr ayında Azərbaycan Prezidenti "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"[1]nı təsdiq etmişdir. Bu proqram Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"[2] sənədində müəyyən olunmuş beş əsas prioritetdən dördüncüsünü – "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" prioritetini reallaşdırmağa xidmət edir. Proqramın əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz yaşayışın təmin edilməsi, müasir infrastrukturun qurulması, dayanıqlı məskunlaşma üçün iqtisadi fəaliyyətin canlandırılması və keçmiş məcburi köçkünlərin məşğulluğunun təmin edilməsidir.

Bu araşdırmanın məqsədi 2016-2026-cı illər ərzində keçmiş məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin inkişaf dinamikasını izləmək, məşğulluq və gəlir imkanlarının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri təhlil etmək, mövcud problemləri müəyyənləşdirmək və gələcək siyasət üçün elmi əsaslandırılmış tövsiyələr təqdim etməkdir.

## 1. Məcburi Köçkünlüyün Hüquqi – İnstitutsional Çərçivəsi

### 1.1 Hüquqi – institutsional çərçivə

Araşdırmanın bu bölməsində məqsəd qaçqın və məcburi köçkünlərin hüquqları, o cümlədən işləmək və iş şəraiti hüququ, sosial müdafiə və sosial təminat hüququ, dövlət xidmətlərinə çıxış, qida, geyim və mənzil hüququ, tibbi yardım hüququ, ailə hüquqları və təhsil hüququ ilə bağlı mövcud qanunvericilik vəziyyətini göstərməkdir.

1951-ci il Qaçqınlar Konvensiyası və onun 1967-ci il Protokolu qaçqının beynəlxalq səviyyədə tanınmış tərifini ehtiva edir və onların malik olduğu qanuni hüquqları müəyyən edir.[3] Azərbaycan Respublikası 1992-ci ilin dekabrında BMT-nin 1951-ci il «Qaçqınların statusu haqqında» Konvensiyasına və onun 1967-ci il Protokoluna qoşulmuş, qaçqın və məcburi köçkünlərlə bağlı beynəlxalq normalara tam uyğun hüquqi baza yaratmışdır. Azərbaycan 2012-ci il 26 aprel tarixində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə tamhüquqlu üzv seçilmişdir.[4]

Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Ölkə Prezidenti tərəfindən 95 fərman və sərəncam imzalanmış, uzunmüddətli Dövlət Proqramları təsdiq edilmiş, Nazirlər Kabineti 357 qərar və sərəncam, Milli Məclis isə 33 qanun qəbul etmişdir[5].

[1]) https://president.az/az/articles/view/57883
[2]) https://president.az/az/articles/view/50474
[3])https://www.unhcr.org/media/1951-refugee-convention-and-1967-protocol-relating-status- refugees
[4,5]) https://sfdi.gov.az/mecburi-kockun-tarix

Azərbaycanda qaçqın və məcburi köçkünlərin statusu, onların dövlət orqanları tərəfindən hüquqlarının və sosial müdafiəsinin, eləcədə onların iş və mənzillə, beş il müddətinə mənzil kirayəsi və kommunal xidmət haqqlarının ödənilməsindən azad edilməsi, 10 il müddətinə məqsədli faizsiz ssuda verilməsini, müvəqqəti yaşayış yerində qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin lazımi pulsuz dərman

yardımı, güzəştlə gündəlik tələbat malları alması, müvafiq sənədlər olmadıqda belə, sonradan dəqiqləşdirmək şərtilə, minimum məbləğdə pensiya və müavinətlər almaq, tək pensiyaçıları və iş qabiliyyəti olmayan əlilləri xüsusi sosial təminat müəssisələrində yerləşdirmək, vergi və digər güzəştləri nəzərdə tutan " Qaçqınların və məcburi köçkünlərin statusu haqqında " ilk qanun Azərbaycan Respublikası Prezidenti Ə. Elçibəy tərəfindən 29 sentyabr 1992-ci ildə imzalanmışdır.[6] Qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin edilməsini, bu şəxslərin daşınmasını, müvəqqəti yerləşdirilməsini, onlara tibbi xidməti və digər zəruri yardım göstərilməsini təşkil edilməsini yerli icra hakimiyyəti orqanları və Daimi Yaşayış Yerlərini Məcburi Tərk Etmiş Şəxslərlə İş üzrə Azərbaycan Respublikasının Dövlət Komitəsi və onun yerli orqanları tərəfindən həyata keçirilməsini nəzərdə tuturdu.

Bu Qanunda qaçqın və məcburi köçkün anlayışları belə ehtiva olunur;

Maddə 1. **"Qaçqın" və "məcburi köçkün" anlayışları**

Milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalması, həyatına, ailəsinə, əmlakına real təhlükə yaranması ilə əlaqədar daimi yaşadığı dövlətin onu müdafiə etməsindən istifadə edə bilməməsi, yaxud təhlükəyə görə bu müdafiədən istifadə etmək istəməməsi üzündən yaşadığı ölkənin hüdudlarından kənarda olan, Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər Azərbaycan Respublikası ərazisində "qaçqın", Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçən şəxslər və ya başqa ölkədə daimi yaşayış yerini tərk etməyə məcbur olub Azərbaycan Respublikasına gəlmiş Azərbaycan Respublikasının vətəndaşları "məcburi köçkün" sayılır.7

21 may 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Ümummilli Lider H.Əliyev tərəfindən imzalanmış "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununda[8] və eyni zamanda «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda qaçqın və məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxslərin) anlayışları daha təkmilləşdirilmiş, statuslarının alınması və itirilməsi qaydaları dəqiqləşdirilmiş, iş və mənzil şəraitinin yaxşılaşdırılması, probleminin yaranması səbəblərinin aradan qaldırılması, onların maddi vəziyyətinin yaxşılaşdırılması və hüquqi statusunun təkmilləşdirilməsinə dair beynəlxalq təşkilatlarla və ilk növbədə BMT-nin QAK idarəsi ilə əməkdaşlıq və bu qanunun pozulmasına görə məsuliyyət nəzərdə tutulmuşdur. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununda istifadə edilən anlayışlar:

**qaçqın** - Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir;

**məcburi köçkün** (ölkə daxilində köçürülmüş şəxs) - Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxsdir.

Başqa ölkədəki daimi yaşayış yerini bu maddənin birinci hissəsində göstərilən əsaslara görə tərk etməyə məcbur olub Azərbaycan Respublikasına gəlmiş Azərbaycan Respublikası vətəndaşına müvafiq icra hakimiyyəti orqanının qərarı ilə məcburi köçkün statusu verilə bilər.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 saylı Sərəncamı ilə «Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə» Dövlət Proqramı qəbul edilmişdir.

---

[6,7,8]) https://e-qanun.az/framework/7750

**Qaçqın və ya məcburi köçkün** (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış şəxsə müəyyən edilmiş qaydada aşağıdakı **təminatlar verilir**:

- haqq ödəmədən müvəqqəti yaşayış yerinə getmək və əmlakını aparmaq;
- müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, əlillərin, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada lazımi dərman və tibb yardımı almaq;
- təhsil almaq;
- yaşayış məntəqələrində daimi yaşayan vətəndaşlarla eyni əsaslar üzrə ərzaq və sənaye malları almaq;
- dövlətin təyin etdiyi birdəfəlik və digər yardım almaq;
- tək pensiyaçıların və əmək qabiliyyəti olmayan əlillərin xüsusi sosial təminat müəssisələrində ilk növbədə yerləşdirilməsi;
- Bu Qanunla müəyyənləşdirilmiş müddətdə qaçqın və ya məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almaq;
- dəymiş maddi və digər ziyanın ödənilməsi məsələsini qaldırmaq;
- pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək;
- əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ;
- Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən "Yol sənədi" əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına gələ bilərlər

- Qaçqın statusu almış şəxs Azərbaycan Respublikasının qanunvericiliyində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün nəzərdə tutulan hüquqlarından istifadə edir və vəzifələri daşıyır.
- Qaçqın statusu almış şəxs iş və ya yaşayış yeri əldə edənədək, lakin 3 aydan artıq olmayan müddətə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərində könüllü yerləşdirilə bilər.

### 1.2. Məcburi köçkünlərin imtiyazları

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamının 2-ci bəndinə əsasən, məcburi köçkünlərin 1992-1998-ci illərdə mülkiyyət formasından asılı olmayaraq müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması onlar öz doğma yurdlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədilə yeni qəsəbələrə və evlərə köçürülənədək dayandırılır;
- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının 3-cü bəndinə əsasən, özəl müəssisələrin, ali və orta ixtisas təhsili məktəblərinin rəhbərlərinə tövsiyə olunmuşdur ki, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək etsinlər;
- Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinətinin və kommunal xidmətlər üzrə güzəştlərin əvəzinə vahid aylıq müavinət verilir:
- Sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlərə ayda 33 manat, digər yaşayış yerlərində yaşayan məcburi köçkünlərə isə ayda 60 manat olmaqla vahid aylıq müavinət ödənilir.
  - Eyni zamanda sıx məskunlaşma yerlərində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin istehlak etdikləri kommunal xidmət xərcləri (elektrik enerjisi, təbii qaz, su və məişət tullantılarının daşınması) dövlət tərəfindən ödənilir.
  - Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 1308 nömrəli Sərəncamına[9] əsasən dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azaddırlar. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2011-ci il tarixli

Sərəncamına[10] uyğun olaraq, 2011/2012-ci tədris ilindən etibarən dövlət ali təhsil müəssisələrinin bakalavr və magistratura təhsil səviyyələrinə yeni qəbul olunmuş və ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

- orta ümumtəhsil məktəblərində təhsil alan məcburi köçkün şagirdlər dərsliklərlə pulsuz təmin olunurlar;
- idarə, müəssisə və təşkilatlarda ştatların və işçilərin sayının ixtisarı zamanı işdə saxlanılmaq üçün üstünlük hüququna malikdirlər;
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş formalı pulsuz dərman reseptləri əsasında verilən dərman preparatlarının siyahısında göstərilən dərman preparatları ilə dövlət büdcəsi vəsaiti hesabına təmin edilirlər;
- pulsuz tibbi müayinə və müalicə ilə təmin olunurlar;
- şəxsiyyət vəsiqələrinin verilməsinə görə rüsumdan azaddırlar;
- məhkəmələrə iddia ərizəsi ilə müraciətə görə rüsumdan azaddırlar;
- muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır[11];
- mənzil və ya ev alqı-satqısı zamanı notarial rüsumlardan azaddırlar[12].

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.14-cü bəndinə əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məcburi köçkün statusu haqqında vəsiqəsi əsasında müəyyənləşdirilir.

### 1.3. Azərbaycanın mənzil və sosial müdafiə qanunvericiliyində yeni islahatlar: işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondunun yaradılması

3 iyun 2026-cı il tarixində Azərbaycan Respublikası Milli Məclisinin Əmək və Sosial Siyasət və İnsan Hüquqları komitələrinin birgə iclasında Mənzil Məcəlləsinə, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara təklif edilən dəyişikliklər müzakirə olunmuşdur. Burada məqsəd məcburi köçkün statusu və ona tətbiq olunan xüsusi sosial dəstək mexanizmləri müvafiq qanunvericilik çərçivəsində yenidən tənzimlənməsidir.
Təklif edilən əsas yeniliklər aşağıdakılardır:

**1. İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaradılması:** Mənzil Məcəlləsinə təklif edilən ən mühüm dəyişikliklərdən biri məhz bu fondun təsis edilməsidir. Bu fondun əsas məqsədi vətəndaşlara yaşayış sahələrini icarə əsasında deyil, mülkiyyət hüququ ilə verməkdir. Beləliklə, keçmiş məcburi köçkünlər yeni yaşayış yerlərində daha etibarlı və daimi mülkiyyətçi statusu əldə edəcəklər.

---

[9]) https://idp.gov.az/az/content/7/parent/21
[10]) https://president.az/az/articles/view/3089
[11]) Vergi Məcəlləsi Maddə 102.5 https://e-qanun.az/framework/46948
[12]) https://e-qanun.az/framework/4574

**2. Statusun itirilməsi məsələsinin dəqiqləşdirilməsi:** "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna təklif edilən dəyişikliklə şəxsin məcburi köçkün statusunu itirməsi hüquqi cəhətdən aydınlaşdırılır. Belə ki, keçmiş məcburi köçkün işğaldan azad olunmuş ərazidə əvvəlki yaşayış yerinin əvəzinə yeni yaşayış sahəsi aldıqda və ya dövlət tərəfindən təklif olunan bu imkandan könüllü şəkildə imtina etdikdə, onun statusunun itirilməsi qanunvericilik səviyyəsində dəqiq müəyyən edilir.
**3. Sosial müdafiənin 3 il müddətində davam etməsi:** "Məcburi köçkünlərin sosial müdafiəsi haqqında" Qanuna edilən dəyişiklik isə sosial müdafiə tədbirlərinin müddətini dəqiqləşdirərək onun 3 il davam

etməsini nəzərdə tutur. Qanun qüvvəyə minənədək köçürülmüş şəxslər üçün bu müddət onların yeni ərazilərə köçürüldüyü tarixdən hesablanacaq. Bundan əlavə, qanun qüvvəyə minənədək artıq yeni ərazilərdə mənzillə təmin olunmuş məcburi köçkünlər də təklif edilən hüquqi imtiyazlardan yararlana biləcəklər.

Bu qanunvericilik təşəbbüsü ilə Azərbaycan hökuməti "Böyük Qayıdış" proqramı çərçivəsində məskunlaşma prosesini daha dayanıqlı və hüquqi cəhətdən təminatlı etməyi, eyni zamanda, keçmiş məcburi köçkünlərin mülkiyyət hüquqlarının etibarlı qorunmasını hədəfləyir.

Dünyanın bir sıra aparıcı beynəlxalq təşkilatları, o cümlədən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə göstərilən qayğını çox yüksək qiymətləndirir və bir çox hallarda ölkəmizi bu sahədə nümunəvi ölkə adlandırırlar.[13]

## 2. Beynəlxaq Təşkilatların və Donor Ölkələrin Humanitar Yardımları

Birinci Qarabağ müharibəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş azərbaycanlılara 2000-ci illərin əvvəlinə qədər Azərbaycan hökumətilə yanaşı , humanitar təşkilatlar,və xüsusilə BMT QAK (UNHCR) məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasında kritik rol oynamışdır.

**BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi** 1992-ci ilin dekabrından 2025-ci iln 31 avqustana qədər Azərbaycanda fəaliyyət göstərmişdir. Bu dövr ərzində təşkilatın xətti ilə təxminən 112 milyon ABŞ dolları həcmdə müxtəlif layihələr həyata keçirilmişdir. Bu vəsaitin 22 milyon ABŞ dolları inzibati xərclərə aiddir.

BMT QAK fəaliyyətinin əsas istiqaməti qaçqın və məcburi köçkünlər üçün sığınacaq, əsas ehtiyacların ödənilməsi (ərzaq, qeyri-ərzaq yardımı, su təchizatı, sanitariya və s.), təhsil, səhiyyə, və s. layihələr həyata keçirməkdir. 1990-cı illərdə təşkilatın Azərbaycanda olan məcburi köçkünlər üçün əməliyyatlarına hər il 8 milyon ABŞ dollarınadək vəsait sərf olunurdu.

2020-ci ildən isə təşkilat ölkədə qaçqın və sığınacaq axtaran şəxslərə səhiyyə xidməti, təminatı aşağı olan ailələrə əsas ehtiyacların ödənilməsi üçün maliyyə yardımı, orta təhsilə dəstək, ali məktəblərdə təhsil alan qabaqcıl qaçqın tələbələri üçün Almaniya Hökumətinin ayırdığı təqaüdlərin təmin edilməsi, qaçqın və məcburi köçkün gənclər üçün komputer və digər təlim-tədris fəaliyyətinin təşkili, qaçqın və məcburi köçkünlərə hüquqi yardımın təmin edilməsi, həmçinin ailə-məişət zorakılığı ilə mübarizə və gender bərabərliyinin təşviqi üzrə layihələri birbaşa və ya icraçı tərəfdaşları vasitəsi ilə həyata keçirməyə başlamışdır.

Cədvəl 1. BMT QAK Azərbaycan Nümayəndəliyinin 2020-2025-ci illərdə əhali və maliyyə icmalı

| | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 |
|---|---|---|---|---|---|---|
| Məcburi Köçkünlər ,nəfər | 653 921 | 654 839 | 658 793 | 657 749 | 655 212 | 655 212 |
| Vətəndaşlığı olmayan şəxslər,nəfər | 3 585 | 3 585 | 3 585 | 3 585 | 271 | 241 |
| Qaçqınlar,nəfər | 1 572 | 1 676 | 6 414 | 5 771 | 6 434 | 6 389 |
| Sığınacaq axtaranlar,nəfər | 48 | 34 | 152 | 168 | 267 | 199 |
| Qaçqın və geri qayıdanlar,nəfər | | | | | 71 | 13 |
| Büdcə, milyon ABŞ dolları | 5,47 | 10,10 | 7,80 | 7,40 | 8,04 | 7,10 |

Mənbə: https://www.unhcr.org/where-we-work/countries/azerbaijan?datase

[13]) https://mehriban-aliyeva.az/site/activitiesNews/846700?part=activities&spart=speeches

Şəkil 1. BMT QAK Azərbaycan Nümayəndəliyinin 2020-2025-ci illərdə məcburi köçkün və onlara bərabər tutulan şəxslər və maliyyə icmalı




Mənbə: https://www.unhcr.org/where-we-work/countries/azerbaijan?datase

BMT QAK Azərbaycan Nümayəndəliyinin məlumtalarına əsasən məcburi köçkünlərin sayı 2025-ci ildə də yüksək olaraq qalmışdır. Belə ki, 2020-2022 ci illərdə məcburi köçkünlərin sayında 4872 nəfər və ya 0.75 faiz artım olmuş, 2023-2025-ci illərdə isə 3581 nəfər və ya 0.55 faiz azalmışdır. 2022-ci ildən 581 nəfər məcburi köçkünün statusu ləğv edilmişdir.

**Birləşmiş Millətlər Təşkilatı (BMT)**

BMT-nin agentlikləri tərəfindən 1992-2015- ci illər ərzində Azərbaycanda humanitar və inkişaf layihələrinə təxminən 290 milyon ABŞ dollarından çox həcmində vəsait ayrılmış, ondan 115 milyon ABŞ dolları BMT-nin Ümumdünya Ərzaq Proqramının (WFP) Azərbaycandakı Nümayəndəliyinin xətti ilə, 100 milyon ABŞ dolları BMT-nin Qaçqınlar üzrə Ali Komissarının (BMTQAK) Azərbaycandakı Nümayəndəliyi xətti ilə sırf qaçqın, məcburi köçkün və «qaçqın» statusu almaq niyyətində olan şəxslərin sosial müdafiəsinə, qalan vəsait isə digər BMT agentlikləri tərəfindən müxtəlif humanitar və inkişaf layihələrinə sərf edilmişdir.

**Dünya Bankı**

**MKSİF və Dünya Bankının məcburi köçkünlərin mənzil və məşğulluq şəraitinin yaxşılaşdırılması üzrə birgə tədbirləri**

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 1999-cu il Fərmanı ilə yaradılmış Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu (MKSİF) məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı ərazilərdə infrastruktur, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, iş yerlərinin açılması və kiçik biznesin inkişafına yardım edir.

**2001-2005-ci illər (birinci layihə):** Dünya Bankının 10 milyon ABŞ dolları güzəştli krediti (Azərbaycan Hökumətinin payı 0,7 milyon) hesabına 7 milyon dollar infrastruktur bərpasına, 2,1 milyon dollar mikrokreditlərə yönəldilib. 30 şəhər və rayonda 170 minədək məcburi köçkünün faydalandığı 192 icma mikrolayihəsi icra olunub, 1670 hüquqi və 10 687 fiziki şəxsə kredit verilib.

**2005-ci il (ikinci layihə):** Ümumi dəyəri 12,6 milyon ABŞ dolları (11,5 milyon Bank krediti, 1,1 milyon Hökumətin payı) olan yeni Saziş üzrə 168 mikrolayihə icra edilib, 110 min nəfər (80%-i məcburi köçkün) faydalanıb.

**2008-ci il (əlavə maliyyələşdirmə):** 2009-2011-ci illəri əhatə edən layihə üzrə ümumi dəyər 24,19 milyon ABŞ dolları (15 milyon Bank krediti, 8,69 milyon Azərbaycan Hökumətinin payı).

**2011-ci il:** "Məcburi Köçkünlərin Yaşayış şəraiti və Gəlir İmkanlarının Dəstəklənməsi Layihəsi" üzrə 78 milyon ABŞ dolları (50 milyon Bank krediti, 28 milyon Azərbaycan Hökumətinin payı).

**2016-2020-ci illərdə** Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində "Məcburi Köçkünlərin Yaşayış Səviyyəsinin və Dolanışıq Vasitələrinin Yaxşılaşdırılması" layihəsi (dəyəri 65 milyon ABŞ dolları) icra edilmişdir. Bu layihə 2019-cu ilin sonunda başa çatmışdır.

**Ümumi nəticələr (son 10 ildə):** 325 min nəfərin faydalandığı, dəyəri 32 milyon manat olan 550 mikrolayihə icra edilib (faydalananların 83%-i məcburi köçkündür). Həmçinin 10,8 min nəfər məcburi köçkünə 7,7 milyon manat mikrokredit verilib (50 min nəfər faydalanıb).

**2019-cu il (gənclərin dəstəklənməsi proqramı):** 2500 məcburi köçkün gəncin peşə təlimlərinə cəlb edilməsi, sertifikat və avadanlıq alması nəzərdə tutulub. Birinci mərhələdə 833 nəfər 6 ay peşə və 3 ay kompüter təlimi keçib, əlavə 15 gün "Biznesin idarə olunması" təlimi alıb. 40-dan çox peşə üzrə təlimlər təşkil edilib. Biznes planı təsdiq edən gənclərə alət və avadanlıqlar verilib.

**2022-ci il:** Dünya Bankının "Azərbaycanda bərpa və sülh quruculuğu üçün tədqiqat, təhlil və potensialın gücləndirilməsi" qrant layihəsi çərçivəsində 22 şəhər və rayonda məcburi köçkünlərin demoqrafik, sosial-iqtisadi vəziyyəti, məşğulluq imkanları təhlil edilib.

**Koreya Respublikası**

Azərbaycanın Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) ilə əməkdaşlığı 1994-cü ildə təşkilatın Azərbaycana təxirəsalınmaz vəziyyətlə əlaqədar 50 000 ABŞ dolları məbləğində yardım etməsi ilə başlayıb və 1996-cı ildən 2005-ci ilə qədər KOİCA 65 nəfər üçün təlim proqramları (300 000 ABŞ dolları dəyərində) təşkil edib. KOİCA-nın 2011 -ci ildə Azərbaycan proqramlarına ayırdığı maliyyə təxminən 10 milyon ABŞ dolları olub.

**Cədvəl 2.** **KOICA tərəfindən Azərbaycanda həyata keçirilən layihələr**

| | |
|---|---|
| "Kəhriz su təchizatı sisteminin yenidən qurulması ilə Azərbaycanda məcburi köçkün icmalarına inteqrasiya edilmiş kənd inkişafı" layihəsi | Benefisiar:<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi<br>Müddəti: 2018-2022 |
| Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikası Təhsil Nazirliyi üçün Təhsil İnformasiya Sisteminin yaradılması texniki yardım (qrant) layihəsi | Benefisiar:<br>Azərbaycan Respublikası Təhsil Nazirliyi<br>Müddəti: 2017-2019 |

Mənbə: https://idp.gov.az/az/activity/18/parent/25

"Kəhriz su təchizatı sisteminin yenidən qurulması ilə Azərbaycanda məcburi köçkün icmalarına inteqrasiya edilmiş kənd inkişafı"layihəsi

KOİCA-nın maliyyə dəstəyilə Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən həyata keçirilən bu layihə 40 kəhriz vasitəsilə 8 mindən çox ailəyə təhlükəsiz və davamlı su təminatını yaxşılaşdırılmış, Azərbaycan Hökumətinin kəhrizlərin baş planının hazırlanmasına töhfə vermiş,mikro və kiçik sahibkarlığa dəstək olaraq, məcburi köçkünlərin, xüsusilə də qadınların kiçik sahibkarlıq fəaliyyətinə dəstək vermişdir.

**Almaniya Federativ Respublikası**

**Almaniya Beynəlxalq və Əməkdaşlıq Cəmiyyəti (GİZ)**

Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin sifarişi ilə Almaniya Beynəlxalq və Əməkdaşlıq Cəmiyyəti (GIZ) Gürcüstan və Azərbaycan Respublikasında məcburi köçkünlərin iqtisadi sahədə iştirakını dəstəkləmək məqsədilə ümumi büdcəsi 6 (altı) milyon avro təşkil edən "Cənubi Qafqazda məskunlaşmış məcburi köçkünlərin və əhalinin aztəminatlı təbəqəsinin iqtisadiyyatda iştirakı" layihəsinin icra edilmişdir. Layihənin əsas məqsədi müxtəlif fəaliyyətlərin həyata keçirilməsi ilə məcburi köçkünlər üçün yeni gəlir imkanlarının yaradılmasıdır və bu fəaliyyətlər 3 komponent üzrə icra edilmişdir:

1 .Məcburi köçkünlərlə bağlı fəaliyyətlərə cəlb olunmuş təşkilatların bacarıqlarının artırılması;

2. Məcburi köçkünlərə yeni gəlir gətirmə imkanlarının yaradılması məqsədilə fərdi dəstəyin göstərilməsi;

3. Bilavasitə məcburi köçkünlər tərəfindən idarə olunan və ya işçi heyəti arasında məcburi köçkünlərin üstünlük təşkil etdiyi kiçik sahibkarlıq subyektlərinə dəstəyin göstərilməsi.

**Yaponiya Dövləti**

Yaponiya hökuməti tərəfindən Azərbaycandakı qaçqın və məcburi köçkünlərə müxtəlif yardımlar - 1993-cü ildə BMT QAK-ın vasitəsilə 1 mln. ABŞ dolları dəyərində adyal və çadırlar, 1996-cı ildə BMT-nin Ümumdünya Ərzaq Proqramı çərçivəsində 1 mln. ABŞ dolları dəyərində yeyinti məhsulları, 1998-ci ildə BMT-nin Ümumdünya Ərzaq Proqramı çərçivəsində 42 milyon yen, 2000-ci ildə isə 100 milyon yen dəyərində ərzaq paylanılmışdır.

2001-ci ildə ayrılmış 40 min ABŞ dolları həcmində vəsait hesabına ABŞ-ın «Rilif İnternəşnl» beynəlxalq humanitar təşkilatı vasitəsilə məcburi köçkünlər üçün Beyləqanda 2 Füzuli məktəbi, Bərdədə 1 Laçın məktəbi, Ağdamda 1 məktəb tikilib 2002- 2003-cü dərs ilində təhvil verilmişdir; 2002-ci ildə Sabirabad rayonundakı Qalaqayın çadır düşərgəsində 81 min ABŞ dolları dəyərində su təmizləyici qurğu quraşdırılmışdır.

**Yaponiya Sosial İnkişaf Fondunun qrantı:** 25 yeni qəsəbədə 2 milyon ABŞ dolları qrant hesabına 101 icma mikrolayihəsi, 14 idman kompleksi, 22 kompüter, 16 gənclər-əyləncə, 13 məişət-tədris və 1 elektron kitabxana yaradılıb, 242 gənc məcburi köçkün peşə təlimi keçib.

**Türkiyə Respublikası**

Türkiyə 1992-20215-ci illərdə 18,226 milyon ABŞ dolları məbləğində yardım etmişdir. Bu ölkənin Türk Qızıl Ay təşkilatı 1993–2001ci illərdə 10,6 milyon ABŞ dolları (çadır düşərgələri, ərzaq və tibbi yardım məbləğində yardım etmişdir. Gəncliyə Yardım Fondu və İstanbul Beynəlxalq Qardaşlıq Dərnəyi 6,487 milyon ABŞ dolları. 2020-ci ildə TİKA vasitəsilə cəbhəyanı rayonlara 40 ton ərzaq yardımı edilmişdir.

**ABŞ**

1992-2022 ci illərdə edilən ümumi yardımın əsas istiqamətlər mənzil tikintisi, təhsil, sağlamlıq, iqtisadi reinteqrasiya və icma inkişafı proqramları çərçivəsində 125 milyon ABŞ dolları məbləğində olmuşdur.

**Digər ölkələr**

Norveç, İsveçrə, Birləşmiş Krallıq kimi ölkələr də öz hökumət proqramları və fondları vasitəsilə məcburi köçkünlərə yardım göstərən və konkret layihələri maliyyələşdirən əsas donor dövlətlər sırasındadır.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün 1993-2018-ci illər ərzində ümumilikdə 1,4 milyard manat beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitindən ibarət olmuşdur.

**BP və tərəfdaşlarının sosial investisiyaları**

BP 33 ildir ki, Azərbaycanda fəaliyyət göstərir və əsas neft və qaz kəşfiyyatı, işlənməsi və nəqli layihələrini təhlükəsiz, səmərəli və etibarlı şəkildə idarə edir. Bu günə qədər BP tərəfdaşları ilə birlikdə ölkədə fəaliyyət göstərdiyi layihələrə 87 milyard dollardan çox sərmayə qoyub

Şirkətin və tərəfdaşlarının sosial investisiyaları yerli imkanların yaradılması, təhsil, icmaların inkişafı, yerli müəssisələr, ətraf mühit, idman potensialı, eləcə də ölkənin zəngin mədəni irsinin tədqiqi və təşviqi kimi sahələri əhatə edir. Ümumilikdə, başlanğıcdan bəri BP özü və BP-nin Azərbaycanda idarə etdiyi birgə müəssisələrdəki tərəfdaşları ilə birlikdə bu ölkədəki sosial investisiya layihələrinə təxminən 111 milyon dollar xərcləyib**.** 2025-ci ildə **BP-**nin (BP-nin Azərbaycanda fəaliyyət göstərdiyi birgə müəssisələrdəki tərəfdaşları adından) maliyyələşdirdiyi və İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM) İctimai Birliyi tərəfindən həyat keçirilən Qarabağdan olan məcburi köçkünləri (MK) peşə bacarıqları ilə təmin etmək və 30 illik işğaldan sonra evlərinə qayıtdıqdan sonra gəlir əldə etmək imkanlarını artırmaq məqsədi daşıyan layihəni uğurla başa çatıb. Bu layihə çərçivəsində Kürdəmir rayonunda müvəqqəti yaşayan 25 məcburi köçkün qadın sertifikatlı dərzi və makiyaj ustası kimi təlim keçmişlər.Cari ildə də **BP və İSİM-**in ənənəni davam etdirərək, 60 nəfər məcburi köçkünün gəlir əldə etmək imkanlarını artırmaq məqsədi daşıyan layihəni davam etdirib. Keçən və cari ildə peşə təlimlərinə əlavə olaraq, iştirakçılara biznesin idarə edilməsi və inkişaf üsulları öyrədilib

## 3. MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL İNTEQRASİYASI VƏ YENİ MƏRHƏLƏYƏ KEÇİD

Dünya Bankının 2023-cü ilin aprel ayında dərc olunmuş "Azərbaycanda Məcburi Köçkünlər: Dolanışıq Vasitələri, Xidmətlər və Niyyətlər" hesabatı 2000 məcburi köçkün ailəsi arasında aparılmış genişmiqyaslı sorğu keçirmişdir. Sorğuda iştirak edən 2000 ailə üzrə orta ev təsərrüfatı ölçüsü 3.8 nəfər təşkil etməklə, ailə üzvlərinin 23.6%-i 16 yaşdan aşağı uşaqlar, 6%-i pensiyaçılar, 3%-i ali təhsil alan tələbələrdir. Respondentlərin 73%-i orta təhsili ən yüksək təhsil səviyyəsi kimi göstərmiş, 10%-i kollec/texniki təhsil, 17%-i isə ali təhsilə malikdir. Ali təhsil səviyyəsi ümummilli göstərici ilə müqayisədə müqayisə oluna bilən səviyyədədir.Sorğuda iştirak edənlərin mənzil növünə görə yaşam şəraiti cədvəl 3-də göstərilib.

Cədvəl 3.Məcburi köçkünlərin mənzil şəraiti,faiz

| **Mənzil növü** | **Faiz** |
|---|---|
| Mənzil (çoxmənzilli bina) | 68.05 |
| Fərdi ev | 17.9 |
| Yataqxana | 9.1 |
| Müvəqqəti mənzil | 4.95 |

Mənbə: www.worldbank.org

Yuxarıdakı məlumatlardan göründüyü kimi, məcburi köçkünlərin 80%-i hökumət tərəfindən təmin edilən mənzillərdə yaşayır. Bu, onların dövlət dəstəyindən yüksək dərəcədə asılılığının əsas göstəricisidir.

Cədvəl 4. Məcburi köçkünlərin mənşəyinə görə mənzil şəraiti,faiz

| | İştirakçılar | mənzil | yataqxana | fərdi ev | müvəqqəti yaşayış yeri | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Ağdam | sayı | 519 | 1 | 32 | 0 | 552 |
| | faiz | 94% | 0,2% | 5,8% | 0 | 100% |
| Füzuli | sayı | 174 | 36 | 106 | 30 | 346 |
| | faiz | 50,3% | 10,4% | 30,6% | 8,7% | 100% |
| Qubadlı | sayı | 86 | 10 | 5 | 33 | 134 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | faiz | 64,2% | 7,5% | 3,7% | 24,6% | 100% |
| Cəbrayıl | sayı | 180 | 15 | 29 | 34 | 258 |
| | faiz | 69,8% | 5,8% | 11,2% | 13,2% | 100 % |
| Kəlbəcər | sayı | 165 | 32 | 68 | 0 | 265 |
| | faiz | 62,3% | 12,0% | 25,7% | 0,0% | 100% |
| Laçın | sayı | 162 | 23 | 97 | 2 | 284 |
| | faiz | 57% | 8,1% | 34,2% | 0,7% | 100% |
| Zəngilan | sayı | 75 | 65 | 21 | 0 | 161 |
| | faiz | 46,6% | 40,4% | 13% | 0,0% | 100% |
| CƏMİ | sayı | 1361 | 182 | 358 | 99 | 2000 |
| | faiz | 68,05% | 9,1% | 17,9% | 4,95% | 100% |

Mənbə: www.worldbank.org

Sorğuda iştirak edənlərin 27.6 faizi Ağdam,17.3 faizi Füzuli,6.7 faizi Qubadlı, 12.9 faizi Cəbrayıl ,13.25 faizi Kəlbəcər, 14.2 faizi Laçın, 8.05 Zəngilan sakinləri olmuşlar. Məcburi köçkünlərin 87%-ə qədəri pulsuz mənzillərdə yaşayır və onların bir çoxu öz mənzil xərclərini ödəməkdə çətinlik çəkir. Respondentlərin əhəmiyyətli əksəriyyəti hazırda Azərbaycan hökuməti tərəfindən təmin edilən mənzillərdə yaşayır (80%), digər 7%-i isə pulsuz və ya başqa bir təşkilat tərəfindən subsidiyalaşdırılan mənzillərdə yaşayır. Qalan 12,7%-i öz mənzillərinə sahibdir.

Məcburi köçkün ailələri uzun illər dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Dövlət 30 ilə yaxın müddətdə məcburi köçkünlərin sosial müdafiəsini fasiləsiz təmin edib. Məcburi köçkünlərin üzləşdiyi sosial və digər problemlərin həlli istiqamətində dövlət tərəfindən ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib, qanunvericilik bazası formalaşdırılıb, müxtəlif istiqamətləri əhatə edən sosial müdafiə tədbirləri icra olunub. Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2004 - 2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam verilib, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 11 qanun qəbul edilib. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” [14]qəbul edilib.

Bu Proqram sonrakı illərdə nəzərdə tutulan böyük quruculuq işlərinin yol xəritəsini müəyyən edərək, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilmişdir.

Azərbaycanda mövcud olmuş 12 çadır düşərgəsindən Biləsuvar rayonu ərazisindəki yaşayan 18822 nəfər olmaqla 4581 ailə 5 çadır düşərgəsi 2003-cü ildə , 2006-cı ildə Bərdə rayonu ərazisində 11663 nəfər olan 3001 ailə yaşayan 3 çadır düşərgəsi , eyni zamanda Ağcabədi rayonundakı 3030 nəfər olmaqla 792 ailə yaşayan 1 şadır düşərgəsi, 2007-ci ildə Saatlı rayonundakı 11133 nəfərdən ibarət 3110 ailənin yaşadığı 2 çadır düşərgəsi və həmin ildə Sabirabad rayonları ərazisindəki 1914 ailənin 8523 nəfəri yaşayan 1 çadır düşərgəsi ləğv edilmişdir.

Cədvəl 4. Məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları rayonlarda çadır düşərgələrinin ləğvi

| № | Məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları rayonlar | ailə | nəfər | Qeyd |
|---|---|---|---|---|
| 1 | **Biləsuvar rayonu** | | | Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanlarına əsasən yeni qəsəbələr salınmış və çadır düşərgələri 2003-cü ildə ləğv edilmişdir |
| | 1 №-li çadır düşərgəsi | 881 | 3729 | |
| | 2 №-li çadır düşərgəsi | 876 | 3787 | |
| | 3 №-li çadır düşərgəsi | 892 | 3730 | |
| | 4 №-li çadır düşərgəsi | 928 | 3688 | |
| | 5 №-li çadır düşərgəsi | 1004 | 3888 | |
| | **Cəmi:** | **4581** | **18822** | |
| | **Bərdə rayonu** | | | Azərbaycan Respublikası Prezidentinin |

| | | | | |
|---|---|---|---|---|
| 2 | 1 №-li çadır düşərgəsi | 763 | 2935 | müvafiq sərəncamına əsasən yeni qəsəbələr salınmış və çadır düşərgələri 2006-cı ildə ləğv edilmişdir |
| | 2 №-li çadır düşərgəsi | 751 | 3066 | |
| | “Türk Qızıl Ay” çadır düşərgəsi | 1487 | 5662 | |
| 3 | **Ağcabədi rayonu** | | | |
| | “Türk Qızıl Ay” çadır düşərgəsi | 792 | 3030 | |
| | **Cəmi:** | **792** | **3030** | |
| 4 | **Sabirabad rayonu** | | | Dövlət Proqramına uyğun olaraq təzə qəsəbələr salınmış və respublikada olan sonuncu çadır düşərgələri 2007-ci ilin dekabr ayında ləğv edilmişdir |
| | “Qalaqayın” çadır düşərgəsi | 1914 | 8523 | |
| 5 | **Saatlı rayonu** | | | |
| | 1 №-li çadır düşərgəsi | 1072 | 3816 | |
| | 2 №-li çadır düşərgəsi | 483 | 1747 | |
| | **Cəmi :** | 1555 | **5570** | |
| | **Yekun cəmi:** | **3110** | **11133** | |

Mənbə: AR Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi https://idp.gov.az/az/content/8/parent/21

Beləliklə, 2007-ci ildə ölkə ərazisində mövcud olan 12 çadır düşərgəsi və dəmir yolu üzərindəki yük vaqonlarından ibarət yaşayış məntəqələri tamamilə ləğv edilmiş və 14000-ə yaxın ailənin 40 000 üzvünün mənzil şəraiti yaxşılaşdırılmışdır.Müvəqqəti xarakter daşıyan 16 fin tipli qəsəbədən sonuncusu isə 2016-cı ildə bütövlüklə aradan qaldırılmışdır. 62 mindən çox məcburi köçkün ailəsinin -300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Dövlət tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilib və bu gündə bu siyasət davam etdirilir.

Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə 121 yeni qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış kompleksi tikilərək istifadəyə verilib. Beləliklə, 62 mindən çox məcburi köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün 1993-2018-ci illər ərzində ümumilikdə 7,1 milyard manat vəsait sərf edilmişdir.

- 3,4 milyard manat dövlət büdcəsinin,
- 2,3 milyard manat Dövlət Neft Fondunun,

2003-2018-ci illərdə ümumi xərclənən vəsaitin də 85 faizi, yaxud 6,1 milyard manatı məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına istifadə olunmuşdur.Belə ki, təkcə 2018-ci ildə 5.923 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülmüş və bununlada həmin vaxtda 58.223 ailənin və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılmışdır ki, ondan da 54.223 ailə, yaxud 272 min nəfər (93%) 2003-2018-ci illərin payına düşür.

### 3.1. MƏCBURU KÖÇKÜNLƏRİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ 2019-2025-ci illər

2019-cu ildə dövlət büdcəsinin mənzil və kommunal təsərrüfatı bölməsindən məcburi köçkünlər üçün salınmış qəsəbələrdə əhaliyə göstərilən mənzil-məişət və kommunal xidmətlər üzrə xərclər üçün Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 6,1 milyon manat vəsait yönəldilmişdir. 21 min nəfərdən çox dövlət hesabına güzəştli kateqoriyaya aid olan şəxslərin(məcburi köçkün statuslu və digər güzəştli kateqoriyaya aid olan şəxslərin) tələbələrin təhsil xərcləri dövlət tərəfindən ödənilmişdir. Hesabat dövründə AR Dövlət Neft Fondundan xərclərinin 11364,3 milyon manatı və ya 98,3 faizi dövlət büdcəsində nəzərdə tutulan transfertə, 200,0 milyon manatı və ya 1,7 faizi qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilmişdir.

[14]) https://e-qanun.az/framework/6261

2020-ci ilin dövlət büdcəsindən sosial yönlü siyasətin digər vacib istiqamətləri kimi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi,yaşayış şəraitinin yaxşılaşdırılması, habelə onların bir qisminin istifadə etdikləri kommunal xidmət haqlarının dövlət büdcəsi hesabına ödənilməsi üçün 2020-ciilin icmal və dövlət büdcələrindən üst-üstə 765,6 milyon manat (Azərbaycan Respublikasının Dövlət Neft Fondundan 200,0 milyon manat,dövlət büdcəsinin sosial müdafiə və sosial təminat bölməsindən 358,2 milyon manat, dövlət əsaslı vəsait qoyuluşu xərclərindən 164,9 milyon manat, dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondlarından 42,5 milyon manat) vəsait ayrılmışdır ki, bu da 2019-cu illə müqayisədə 271,3 milyon manat və ya 54,9 faiz çoxdur.

2021-ci ildə Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2021-ci ilin dövlət büdcəsindən 354,4 milyon manat məbləğində vəsait yönəldilmişdir ki, bu da proqnoza nisbətən 10,1 milyon manat (2,8 faiz), 2020-ci illə müqayisədə isə 3,9 milyon manat və ya 1,1 faiz azdır. Xərclərin az icra olunmasının əsas səbəbi işğaldan azad olunmuş Tərtər rayonun Suqovuşan qəsəbəsində nəzərdə tutulmuş tikinti işlərinin aparılmasının təhlükəsizlik baxımından məqsədə uyğun hesab edilməməsi olmuşdur.

2022-ci il ərzində ödənişli əsaslarla təhsil alan keçmiş məcburi köçkün statuslu 12799 nəfərin təhsil haqqı ödənilmişdir. Keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2022-ci ilin dövlət büdcəsindən 364,9 milyon manat məbləğində vəsait yönəldilmişdir ki, bu da 2021-ci illə müqayisədə 10,5 milyon manat və ya 3,0 faiz çoxdur.

2023-cü il ərzində ödənişli əsaslarla təhsil alan keçmiş məcburi köçkün statuslu 16841 tələbənin təhsil haqqı ödənilmişdir. Hesabat ilində keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2023-cü ilin dövlət büdcəsindən 353.9 milyon manat vəsait yönəldilmişdir.

2024-cü ildə keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin maliyyə təminatı üçün 329,2 milyon manat məbləğində vəsait sərf olunmuşdur. Həmin dövrdə ərzində ödənişli əsaslarla təhsil alan keçmiş məcburi köçkün statuslu 12528 nəfər tələbənin təhsilı haqqı ödənilmişdir.

Cədvəl 5. 2025-2026-cı illərdə dövlət büdcəsindən məcburi köçkünlərin sosial müdafiəsinin maliyyə təminatı, milyon manat

| | **2025** | **2026** |
|---|---|---|
| Məcburi köçkünlərə vahid aylıq müavinətlərin ödənişi | **252** | **280,1** |
| Məcburi köçkünlərin kommunal xidmət xərclərinin qarşılanması | **17,5** | **19,3** |
| Digər tədbirlər üzrə xərclər | **15,5** | **11,8** |

Mənbə: AR NK-nin 2025-ci ildə fəaliyyəti haqqında hesabatından

2025-ci ildə dövlət büdcəsindən keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin maliyyə təminatı üçün 252.0 milyon manat xərclənmişdir. 2026-cı ildə bu məqsəd üçün dövlət büdcəsində keçən illə müqayisədə 11.15 % artıq və ya 280.1 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Cədvəl 6. 2025-ci ildə vahid müavinət alan məcburi köçkünlərin sayı

| | **2025** |
|---|---|
| Vahid müavinət alanların sayı, min nəfər | **387,3** |
| onlardan: 33 manat alanların sayı, min nəfər | **44,8** |
| 60 manat alanların sayı,min nəfər | **342,5** |

Mənbə: AR NK-nin 2025-ci ildə fəaliyyəti haqqında hesabatından

2025-ci ildə dövlət büdcəsindən 387.3 min nəfər məcburi köçkün, onlardan 44.8 min nəfəri və ya 11.6 faizi 33 manat, 342.5 min nəfəri və ya 88.4 faizi isə 60 manat aylıq vahid müavinətlə təmin edilmişdirlər.

Dövlətin sosial müdafiə sistemi tək bir statusa bağlı deyil, çoxsəviyyəli mexanizmlərdən ibarətdir. Buraya ünvanlı sosial yardım, məşğulluq proqramları, mənzil təminatı, təhsil və səhiyyə dəstəyi, reabilitasiya və sosial inteqrasiya proqramları da daxildir.

2026-cı ilin dövlər büdcəsindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq əhalinin yeni yaşayış şəraitinə adaptasiya olunması üçün reinteqrasiya tədbirlərinin təşkili, inşa edilmiş evlərə ailələrin köçürülməsi məqsədilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün 41,9 milyon manat proqnozlaşdırılıb. Bu proqram çərçivəsində işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması məqsədilə 5 milyon manat, işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi məbləğində maliyyə yardımının ödənilməsi məqsədilə 2 milyon manat vəsait nəzərdə tutulub.

Cari ilin dövlət büdcəsindən ümumilikdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərin bərpası, yenidənqurulması və digər tədbirlər üçün 3 milyard 500 milyon manat məbləğində vəsait yönəldiləcəkdir.

### 3.2. ARDNF-in qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılmasında rolu

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) təsis edildi

2000-ci illərin əvvəllərindən etibarən Azərbaycan hökuməti əhəmiyyətli neft gəlirləri hesabına məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində daha fəal iştirak etməyə başlamış, AR Dövlət Neft Fondu (SOFAZ) vasitəsilə maliyyələşdirilən genişmiqyaslı mənzil tikintisi proqramı həyata keçirilmişdir. Azərbaycan Respublikasının Dövlət Neft Fondu 2001-ci ildən başlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlərin həyata keçirilməsinə vəsait ayırır. Bu dövr ərzində Dövlət Neft Fondunun vəsaiti hesabına Ağdam, Füzuli, Biləsuvar, Goranboy, Sabirabad, Ağcabədi, Beyləqan, Qəbələ, Şəmkir, Ağstafa, İsmayıllı, İmişli, Göygöl, Bərdə, Oğuz, Şəki, Gədəbəy, Saatlı, Hacıqabul, Balakən, Qazax, Zaqatala, Tərtər, Göyçay, Ucar və Kürdəmir və Samux rayonlarında, Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Mingəçevir, Sumqayıt, Yevlax, Şirvan şəhərlərində, Bakının Pirallahı, Sabunçu və Abşeron və Binəqədi rayonlarında habelə, Mehdiabad, Ramanı, Müşviqabad, Masazır, Pirşağı, Fatmayı, Kürdəxanı və Ümid qəsəbələri ərazisində qaçqın və məcburi köçkünlər üçün hündürmərtəbəli binaların, fərdi yaşayış evlərinin, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisi həyata keçirilmişdir. Ümumiyyətlə ARDNF tərəfindən 2026-cı ilin 31 mart tarixinə olan məlumata görə bu məqsədlər üçün 2 702.7 milyon manat vəsait ayrılmışdır və bu gündə davam edir.

**Şəkil 1.ARDNF tərəfindən Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamların icrasına uyğun olaraq salınmış qəsəbələrdə tikintisi tamamlanmış evlər, sosial-mədəni və infrastruktur obyektlər üzrə 31.03.2021 tarixinə olan məlumat**




Mənbə:ARDNF https://www.oilfund.az/report-and-statistics/recent-figures

Cədvəl 7. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamlarının icrasına uyğun olaraq salınmış qəsəbələrdə tikintisi tamamlanmış evlər, sosial-mədəni və infrastruktur obyektlər üzrə 31.03.2021 tarixinə olan məlumat

| Qanunvericilik aktları | Ölçü vahidi | No 562, 700 | No 577, 700 | No 80 | No 298 | No 2475 | No 1346 | No 687 | No 57 | CƏMİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İcraçılar | | ƏBYA | MKSİF | MKSİF | MKSİF | MKSİF | MKSİF | MKSİF | MKSİF | |
| Qəsəbələr | ədəd | 10 | 14 | 13 | 13 | 22 | 3 | 1 | | 76 |
| Məhəllələr | ədəd | | | | | 5 | 17 | | 3 | 25** |
| Binalar | ədəd | 1 | | | | 68 | 266 | | 12 | 347 |
| Evlər/mənzillər | ədəd | 2231 | 3 860 | 3 860 | 4 179 | 11,109 | 13,408 | 490 | 835 | 40,392* |
| Məktəblər | ədəd | 6 | 12 | 15 | 7 | 26 | 19 | 1 | 3 | 89 |
| Musiqi məktəbləri | ədəd | 0 | 0 | 3 | | 1 | 3 | 1 | | 8 |
| Uşaq bağçaları | ədəd | 6 | 12 | 5 | 11 | 20 | 16 | | | 70 |
| Xəstəxanalar | ədəd | 1 | 1 | 1 | 1 | 1 | | | | 5 |
| Tibb məntəqəsi | ədəd | 0 | 0 | 4 | | 8 | 12 | | | 24 |
| Ambulatoriya | ədəd | 0 | 0 | 1 | 4 | 6 | | 1 | | 12 |
| Feldşer-mama məntəqəsi | ədəd | 5 | 11 | 4 | 2 | 3 | | | | 25 |
| İcma mərkəzi | ədəd | 0 | 10 | 8 | 11 | 20 | 14 | 1 | | 64 |
| Yanğınsöndürmə deposu | ədəd | 1 | 3 | 1 | 2 | 6 | 1 | | | 14 |
| İnzibati bina | ədəd | 4 | 10 | 10 | 11 | 24 | 13 | 1 | | 73 |
| Yerli icra hakimiyyətinin binası | ədəd | | | | | | 2 | | | 2 |
| Rabitə qovşağı | ədəd | 1 | 10 | 7 | 11 | 13 | 10 | 1 | | 53 |
| Baytarlıq məntəqəsi | ədəd | 0 | 0 | 3 | 3 | 2 | | | | 8 |
| Hamam | ədəd | 3 | 14 | 12 | 2 | | | | | 31 |
| İdmanolimpiya kompleksi | ədəd | 0 | 0 | | 1 | | | | | 1 |
| Artezian quyuları | ədəd | 3 | 37 | 124 | 12 | 52 | 11 | | 6 | 245 |
| Su anbarları | ədəd | 31 | 38 | 4 | 18 | 73 | 73 | 4 | 14 | 255 |
| Nasos stansiyası | ədəd | 6 | 6 | 2 | 13 | 32 | 51 | 5 | 6 | 121 |
| Yüksək gərginlikli iri və kiçik transformatorlar | ədəd | 41 | 87 | 164 | 115 | 278 | 95 | 11 | 15 | 806 |
| Elektrik yarımstansiyaları | ədəd | 1 | 5 | 5 | 3 | 9 | 8 | 1 | 3 | 35 |
| Yollar | km | 66,0 | 136,0 | 132,0 | 150,8 | 246,552 | 83,492 | 17,0 | 4,794 | 836,608 |
| Su xətti | km | 63,0 | 100,0 | 131,0 | 111,7 | 372,357 | 224,039 | 24,0 | 11,655 | 1043,845 |
| Elektrik xətləri | km | 141,0 | 213,0 | 212,0 | 227,7 | 667,224 | 405,896 | 20,0 | 22,613 | 1909,393 |
| Qaz xətti | km | | | | | 377,933 | 145,690 | 27,0 | 10,434 | 561,057 |
| Kanalizasiya | km | | | | | 14,402 | 76,710 | 25,0 | 3,946 | 120,058 |
| İrriqasiya sistemi | ha | 1630 | 3888 | 250 | 4105 | 1357,9 | 8 | 80 | | 11310,9 |

Mənbə: ARDNF https://www.oilfund.az/projects/2

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamlarının icrasına uyğun olaraq ARDNF mənzil və binalardan, uşaq bağçası və məktəblərdən, xəstəxana və tibb məntəqələrindən başqa artezian quyuları, su anbarları, nasos stansiyaları, müxtəlif güclü transfarmatorları, elektrik yarımstansiyalarının və digər kritik infrastruktur layihələrinin həyata keçirilməsini maliyyələşdirmişdir.

*320 yarımçıq qalmış evin tikilib tamamlanması (Fərman N° 562) va Naxçıvan MR ərazisində 100 evin tikintisi (Fərman N° 132) daxil olmaqla.

**Qəbələ rayonu ərazisində 1 məhəllə - 57 N°-li Fərmanla qeydə alınmış va 40 mənzilli 1 bina (Fərman 2475) va 80 mənzilli 1 bina və 75 mənzilli 1 bina (Fərman N° 1346) əlavə tikilmişdir

### 3.3. Məcburi köçkünlərin regionlarda məskunlaşması və sosial-mənzil şəraiti

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu (MKSİF) tərəfindən müxtəlif rayon və şəhərlərdə salınmış yeni məskunlaşma massivlərinin (qəsəbələrin), onların demoqrafik strukturunun və mövcud sosial-mühəndis infrastrukturunun hərtərəfli mənzərəsini ortaya qoyur. Belə ki, cədvəl 6-da Azərbaycanın müxtəlif şəhər və

rayonlarında məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün dövlət tərəfindən həyata keçirilən layihələrin miqyasını göstərir.

**Cədvəl 8. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamların icrasına uyğun olaraq məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə onların yerləşdiyi əsas şəhər və rayonlar üzrə tikilmiş qəsəbə və məhəllələrdə görülən işlər barədə məlumat**

| | Bakı | Gəncə | Mingəçevir | Abşeron | Yevlax | Şəki | Bərdə | Ağdam | Beyləqan | Goranboy | İmişli | Biləsuvar | Ağcabədi | Füzuli |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qəsəbələrin sayı ,ədəd | 5 | 1 | 2 | 1 | 1 | 1 | 2 | 17 | 1 | 6 | 1 | 11 | 4 | 9 |
| Ərazi ,ha | 130,8 | 25 | 89 | 12 | 10 | 100 | 148 | 794,36 | 100 | 481 | 100 | 834 | 138,06 | 626,7 |
| Ailə sayı | 2935 | 1500 | 916 | 760 | 615 | 423 | 1065 | 5047 | 500 | 1786 | 500 | 4418 | 1170 | 2904 |
| Məckunlaşan adam sayı, nəfər | 12620 | 6450 | 3939 | 3268 | 2645 | 1819 | 4579 | 21702 | 2150 | 7679 | 2150 | 18990 | 5032 | 12487 |
| Yaşayış sahəsi kvm | 202286 | 115280 | 3347 | 53200 | 45360 | 22993 | 76504 | 25290<br>6 | 25900 | 10383<br>8 | 29665 | 25256<br>0 | 76144 | 15400<br>0 |
| İdman olimpiya kompleksi, ədəd | | | | | | | | 1 | | | | | | |
| Məktəb, ədəd | 5 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 17 | 1 | 6 | 1 | 11 | 4 | 9 |
| Uşaq bağçası ədəd | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 10 | 1 | 3 | 1 | 11 | 2 | 7 |
| Tibb məntəqəsi ,ədəd | 2 | 1 | | 1 | | | 2 | 10 | | 2 | 1 | 11 | 3 | 8 |
| Klub-icma mərkəzi ,ədəd | 2 | 1 | | 1 | 1 | 1 | 2 | 11 | 1 | 2 | 1 | 11 | 2 | 7 |
| İnzibati bina ədəd | 2 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 11 | 1 | 6 | 1 | 11 | 2 | 9 |
| Musiqi məktəbi, ədəd | 1 | | | | | | | 3 | | 1 | | | | |
| Rabitə evi ədəd | 1 | 1 | | | | 1 | 2 | 6 | 1 | 2 | | 11 | 1 | 9 |
| Hamam ,ədəd | | | | | | | | 15 | | | | | 2 | |
| Yanğınsöndürmə deposu ,ədəd | 1 | 1 | | | | | | 1 | 1 | 2 | | 3 | 1 | 3 |
| Artezian quyusu ,ədəd | | 3 | | | 4 | | | 135 | 6 | 16 | 2 | 16 | 9 | 1 |
| Xəstəxana , ədəd | | | | | | | 2 | 1 | 1 | 8 | | 1 | | |
| Baytarlıq məntəqəsi , ədəd | | | | | | | | 3 | 1 | 1 | | 1 | 1 | 1 |
| Su anbarı ədəd | 14 | 8 | 2 | 4 | 2 | 4 | 6 | 20 | 2 | 16 | 2 | 19 | 5 | 27 |
| Nasos stansiyası ,ədəd | 8 | 3 | 1 | 2 | 2 | | 4 | 1 | 1 | 2 | 1 | 7 | 2 | 8 |
| Yol ,km | 22,167 | 8,63 | 6,11 | 2,945 | 2,104 | 13,21 | 15,56 | 175,91 | 24,84 | 53,113 | 10,92 | 145 | 23,457 | 97,1 |
| Magistral su xətti , km | 38,734 | 5,1 | 8,19 | 4,589 | 4,21 | 23,79 | 16,32 | 167,79 | 29,54 | 69,26 | 18,63 | 140 | 32,705 | 153,24 |
| Yüksık gərginlikli transformator stansiyası ,ədəd | 1 | 1 | 1 | | 1 | 1 | 1 | 2 | 2 | 6 | 1 | 6 | 1 | 2 |
| Hava elektrik xətti ,km | 54,29 | 29,47 | 15,594 | 29,29 | 9,8 | 26,82 | 39,48 | 272,49 | 34,46 | 161,79 | 31,061 | 230 | 119,26 | 121,73 |
| Müxtəlif güclü transformatorlar ədəd | 15 | 8 | 5 | 4 | 16 | 15 | 8 | 193 | 16 | 36 | 18 | 102 | 22 | 77 |

Mənbə: MKSİF məlumatları əsasında CESD tərəfindən hazırlanıb. https://sfdi.gov.az/options-content

Verilən cədvəldən qəsəbələrin şəhər, qarışıq və ya kənd tipli olduğunu müəyyən etmək üçün yuxarıdakı cədvəlin ilk 4 sətirlərindəki rəqəmlərə diqqət yetirdikdə əhali sıxlığına görə, rayon və şəhərləri 3 əsas qrupa bölmək olar:

- Yüksək sıxlıqlı ərazilər (Şəhər tipli qəsəbələr): Abşeronda hər hektarda 63.3 ailə və ya 272.3 nəfər, Yevlaxda hər hektarda 64.5 ailəvə ya 264.5 nəfər, Gəncədə hər hektarda 60 ailə və ya 258 nəfərin yaşadığını, yəni ən yüksək sıxlığa malikdir. Bu, həmin qəsəbələrin çox yığcam ərazidə yerləşdiyini və intensiv məskunlaşmanın çoxmərtəbəli binalar - yəni şəhər tipli qəsəbələr olduğunu göstərir.
- Orta sıxlıqlı ərazilər(Şəhər və qarışıq tipli qəsəbələr): Bakıda hər hektarda 22.4 ailə və ya 96.5 nəfər, Mingəçevirdə 10.3 ailə və ya 44.3 nəfər yaşayır. Belə qəsəbələrdə həm hündür mərtəbəli binalar, həm də həyətyanı torpağı olan evlər olur.
- Aşağı sıxlıqlı ərazilər (Kənd tipli qəsəbələr): Goranboyda hər hektarda 3.7 ailə və ya 16 nəfər, Şəkidə hər hektarda 4.2 ailə və ya 18.2 nəfər, Füzulidə hər hektarda 4.6 ailə və ya 20 nəfər, İmişli və Beyləqanda hər hektarda 5 ailə və ya 21.5 nəfər, Biləsuvarda hər hektarda 5.3 ailə 22.8 nəfər,Ağdamda hər hektarda 6.4 ailə və ya 27.3 nəfər, Bərdədə hər hektarda 7.2 ailə və ya 31 nəfər yaşayır. Bu, kənd tipli qəsəbələrə xas olan geniş həyətyanı sahələrin, kənd təsərrüfatı torpaqlarının mövcudluğunu göstərir.

Ən böyük məskunlaşma mərkəzlərinə Ağdam (17 qəsəbə, 5047 ailə, 21702 nəfər) və Biləsuvar (11 qəsəbə, 4 418 ailə, 18990 nəfər) layihənin miqyasına görə şəksiz liderlərdir. Füzuli (2904 ailə) və Bakı (2935 ailə) da böyük köç dalğasını qəbul edən əsas mərkəzlərdəndir.

Məskunlaşma massivlərində həyat keyfiyyətini təmin edən obyektlərin bölgüsündə birbaşa proporsionallıq və bəzi regional spesifikalar mövcuddur. Belə ki, səhiyyə və təhsil təminatına görə qəsəbələrdə əhali sayına uyğun olaraq Ağdam (17 məktəb, 10 bağça, 10 tibb məntəqəsi) və Biləsuvar (11 məktəb, 11 bağça, 11 tibb məntəqəsi) ən böyük sosial şəbəkəyə malikdir. Demək olar ki, hər bir qəsəbədə minimum 1 məktəb və 1 tibb məntəqəsi prinsiplə təminat mövcuddur. Mühəndis kommunikasiyaları arasında su infrastrukturu regionların coğrafi və iqlim xüsusiyyətlərinə uyğun olaraq artezian quyularından asılılığa görə Ağdam 135 artezian quyusu mütləq mənada öndədir. Bu, rayonda yeraltı sulardan asılılığın həddindən artıq yüksək olduğunu və böyük suvarma/içməli su şəbəkəsinin qurulduğunu göstərir. Biləsuvar və Goranboyda da bu rəqəm nisbətən (hər birində 16 ədəd artezian quyusu) daha qənaətbəxşdir.

Füzuli rayonu 27 su anbarı və 8 nasos stansiyası ilə diqqət çəkir. Ağdamda isə quyu sayının çoxluğuna rəğmən nasos stansiyası cəmi 1 ədəddir (bunun səbəbi subartezianların birbaşa təzyiqlə işləməsi və ya fərdi nasos sistemləri ola bilər).

Yeni qəsəbələrin daxili və birləşdirici yollarının uzunluğu məskunlaşma sahəsinin genişliyindən xəbər verir. Ən uzun yol şəbəkəsi Ağdam (175,9 km) və Biləsuvar (145 km) qəsəbələrarası və daxili yolların uzunluğuna görə kəskin fərqlə öndədir. Yevlax (2,1 km) və Abşeronda (2,9 km) yol infrastrukturunun qısalığı massivlərin şəhər tipli mərkəzləşdirilmiş və kompakt yaşayış məntəqələri olduğunu göstərir.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə onların yerləşdiyi əsas şəhər və rayonlar üzrə Ailə sayı və Məskunlaşan adamların sayına düşən mənzil sahəsinin hesablanması metodologiyası ölkənin şəhər və rayonlarında mənzillə təmin olunan-cədvəl 6-da göstərilən Məskunlaşan adamların sayını ailələrin sayına bölünməklə tapılır. Daha sonra isə ümumi yaşayış sahəsi ailələrin və Məskunlaşan adamların sayına bölünməklə hər bir ailəyə və üzvünə neçə kvadrat metr mənzil(ev) və hər bir üzvünə neçə kvadrat metr yaşayış sahəsi düşdüyü hesablanır.

Ailə üzvərinin orta sayı = Məskunlaşan adamların sayı / Ailə sayı (1)
1 ailəyə düşən mənzilin(evin) sahəsi kvadrat metr = Yaşayış sahəsi / Ailə sayı (2)
Məskunlaşan hər bir adama düşən kvadrat metr = Yaşayış sahəsi / Məckunlaşan adam sayı,nəfər (3)

Cədvəl 9. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə onların yerləşdiyi əsas şəhər və rayonlar üzrə ailələr və ailə üzvlərinə düşən mənzil sahəsi, kv metrlə

| | Bakı | Gəncə | Abşeron | Yevlax | Şəki | Bərdə | Ağdam | Beyləqan | Goranboy | İmişli | Biləsuvar | Ağcabədi | Füzuli |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nəfər /ailə | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 | 4,3 |
| Nəfər /kv metr | 16,0 | 17,9 | 16,3 | 17,1 | 12,6 | 16,7 | 11,7 | 12,0 | 13,5 | 13,8 | 13,3 | 15,1 | 12,3 |
| Aliə/ kv metr | 68,9 | 76,9 | 70,0 | 73,8 | 54,4 | 71,8 | 50,1 | 51,8 | 58,1 | 59,3 | 57,2 | 65,1 | 53,0 |

Mənbə: MKSİF məlumatları əsasında CESD tərəfindən hazırlanıb. https://sfdi.gov.az/options-content

Şəkil 2. Məcburi köçkünlərin yerləşdiyi əsas şəhər və rayonlar üzrə ailələr və ailə üzvlərinə düşən mənzil sahəsi, kv metrlə




Mənbə: MKSİF məlumatları əsasında CESD tərəfindən hazırlanıb. https://sfdi.gov.az/options-content

Yuxarıdakı cədvələ əsasən bütün regionlarda tikilən hər bir ailəyə düşən orta mənzil və evlərin sahələri fərqlənir.Belə ki, ən çox yaşayış sahəsinə görə ilk beşlikdə Gəncə 76.9 kv.m, Yevlax 73.8 kv.m, Bərdə 71.8 kv.m, Abşeron 70 kv.m və Bakı 68.9 kv.m daxildirlər. Ən az yaşayış sahəsi Ağdam 50.1 kv.m, Beyləqan 51.8 kv.m, Füzuli 53 kv.m və Şəki 54.4 kv.m rayonlarında məskunlaşan məcburi köçkünlərə aiddir.Diqqətçəkən məqam odur ki, bütün regionlar üzrə məskunlaşan əhalinin sayını ailə sayına böldükdə dəqiq olaraq 4,3 əmsalı alınır (məsələn, Bakı 12620 / 2935 = 4,3; Ağdam 21702 / 5047 = 4,3). Bu, layihələndirmə zamanı vahid ailə standartının (orta hesabla 4.3 nəfərlik ailə modeli) tətbiq edildiyini təsdiqləyir.Digər tərəfdən də, məcburi köçkünlərin ailə tərkibinin uçotunun dərindən araşdırılmadığından xəbər verir.

Cədvəl 10. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlar üzrə büdcələri tədqiq olunan ev təsərrüfatlarının orta ölçüsü, nəfər

| İllər | Bütün ev təsərrüfatları (nəfər) | Bütün ev təsərrüfatları (şəhər yerləri üzrə) (nəfər) | Bütün ev təsərrüfatları (kənd yerləri üzrə) (nəfər) | Qarabağ iqtisadi rayonu (nəfər) | Şərqi Zəngəzur iiqtsadi rayonu (nəfər) |
|---|---|---|---|---|---|
| 2021 | 4,1 | 3,9 | 4,4 | 4,3 | 4,2 |
| 2022 | 4,2 | 4,1 | 4,4 | 4,4 | 4,3 |
| 2023 | 4,2 | 4,1 | 4,4 | 4,4 | 4,3 |
| 2024 | 4,2 | 4,1 | 4,3 | 4,4 | 4,2 |
| 2025 | 4,2 | 4,1 | 4,3 | 4,4 | 4,2 |

Mənbə: AR Statistika Komitəsi https://www.azstat.gov.az/portal/tblInfo/TblInfoList.do#

Azərbaycan Respublikası Statistika Komitəsinin "İqtisadi rayonlar üzrə büdcələri tədqiq olunan ev təsərrüfatlarının orta ölçüsü, nəfər" hesabatında Qarabağ və Şərqi Zəngəzur üzrə məlumatlar 2006-cı ildən göstərildiyi dövrdən başlayır və cədvəl 8-də verilənlərdən görünür ki, Qarabağ iqtisadi rayonunda ev təsərrüfatlarının orta ölçüsü Şərqi Zəngəzur iqtisadi rayonunda ev təsərrüfatlarının orta ölçüsündən yüksəkdir. Sosial ədalət prinsipləri baxımından Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərə yaşayış sahəsi daha çox olan mənzil və evlərlə təmin olunmalı idilər.

Verilənlər sübut edir ki, Azərbaycan Hökuməti məcburi köçkünlərə sadəcə evlər tikməyib, sıfırdan nəhəng müstəqil sosial-iqtisadi ekosistemlər (məktəb, yol, enerji və xüsusilə nəhəng su şəbəkəsi) yaradıb. Lakin, bunlarla yanaşı çatışmamazlıqlar da var. Belə ki,bu qəsəbələrdə yaşayan insanların kütləvi və ya fərdi qaydada idman oyunlarının həyata keçirilməsi üçün qəsəbələrin məktəblərin idman zallarından və futbol meydançalarından istifadə etməyə məcburdurlar. Məcburi köçkünlər üçün yeni tikilən qəsəbələrin yerləşdiyi ərazilərin coğrafiyasına və memarlıq üslubuna, planlı və əlçatanlıq baxımından uyğun olan stadion, idman meydançaları və idman zalları,inanclı insanlar üçün isə məscidlərin, toy və yas mərasimlərinin həyata keçirilməsi üçün binaların tikilməsi də məqsədəuyğun olardı.

2020-ci ilə qədər dövlətin məcburi köçkün siyasəti aktiv sosial müdafiə modeli ilə xarakterizə olunur. Bu dövrdə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarət olmuşdur:

- Mənzil təminatının yaxşılaşdırılması məqsədilə həyətyanı sahəsi olan ev və çoxmənzilli binaların tikintisi vasitəsilə məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması;
- Sıx müvəqqəti məskunlaşma yerlərində yaşayanlara ayda 33 manat və kommunal xidmətlər (elektrik, qaz, su, məişət tullantıları) dövlət büdcəsi hesabına ödənilməsi, digər yaşayış yerlərində yaşayanlara - ayda 60 manat ödənilməsi, vergi və rüsumlardan azad edilməklə sosial vəziyyətlərinin yaxşılaşdırılmasına dəstək;
- İlkin özünüməşğulluq, peşə hazırlığı, ixtisas artırma proqramlarına cəlb etməklə və təşkilatlarda ştat ixtisarı zamanı işdə saxlanılmağa üstünlük hüququ köçkünlərin məşğulluğun təmin edilməsinə dəstək;
- Əmək yarmarkaları təşkil etməklə məcburi köçkünlərin işə düzəlməsinə dəstək;

Ümumilikdə, Prezidentin Ehtiyyat Fondu, Dövlət Neft Fondu və Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına ayrılan vəsaitlər üzrə isə bütün infrastrukturu ilə təmin edilmiş 78 qəsəbə və 25 hündür mərtəbəli binalardan ibarət məhəllələr tikilərək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılaraq onların istifadəsinə verilmişdir. Bura 288 hündür mərtəbəli bina, 37397 mənzil və fərdi evlər, 86 məktəb, 7 musiqi məktəbi, 67 uşaq bağçası, 5 xəstəxana, 23 tibb məntəqəsi, 12 amblatoriya, 25 feldşer-mama məntəqəsi, 62 klub-icma mərkəzi, 14 yanğınsöndürmə deposu, 71 inzibati bina, 2 yerli icra hakimiyyəti binası, 53 rabitə qovşağı, 8 baytarlıq məntəqəsi, 31 hamam, 1 idman olimpia kompleksi, 245 ədəd artezian quyusu, 255 ədəd su anbarı,121 ədəd nasos stansiyası,806 müxtəlif güclü transfarmatorları, 35 ədəd elektrik yarımstansiyalarının, 823 km yol, 1006 km su xətti, 1838 km elektrik xətti, 541 km qaz xətti, 105 km kanalzasiya xətti, 11310 iriqasiya sistemi və s. bu kimi işlər daxildir.

## 4. 2020-ci il Müharibəsindən Sonra Yeni Paradiqma: "Böyük Qayıdış" Proqramı (2021-2026)

### 4.1. "Böyük Qayıdış" Proqramının konseptual əsasları

2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük Vətən Müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan özünün işğal altında olan bütün ərazilərini azad etmişdir. Bunun nəticəsində məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı üçün real imkan yaranmışdır.

İşğaldan azad olunmuş ərazilərin tezliklə bərpasının və bu istiqamətdə həyata keçirilən irimiqyaslı layihələr, yeni iqtisadiyyat quruculuğu, əhalinin məskunlaşdırılması, yeni iş yerlərinin yaradılması, məşğulluq problemləri hökumətin iqtisadi siyasətinin əsas prioritetlərindən biri olmuşdur.Post-konflikt ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi siyasətinin əsas prioritetlərindən biridir. “Böyük Qayıdış” proqramının qəbul olunması və vüsətlə icrası bu siyasətin əsasını təşkil edir. Əsas məqsəd işğal nəticəsində dağıdılmış ərazilərin ən yüksək dünya standartlarına uyğun bərpası və məskunlaşdırılması,eyni zamanda Azərbaycanın iqtisadi inkişafına töhfə verə biləcək yeni iqtisadi potensialın yaradılmasıdır.

Şəkil 3.Qarabağ və Şərqi Zənəzur iqtisadi rayonlarının inzibati sərhədləri




Mənbə: Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
https://arxkom.gov.az/en/sehersalma/interaktiv-xerite

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının əsas mahiyyəti, həmin ərazilərdə əhalinin məşğulluğunu və dayanıqlı inkişafını ancaq irimiqyaslı investisiyalar təmin ediləcəyi şübhəsizdir. Ona görə də yenidən tikilən kənd və şəhərlərdə mənzil və evlərlə yanaşı, kənd təsərrüfatı və məhsullarının emal müəssisələri və xidmət obyektləri yaradılmaqla, məskunlaşmanın dayanıqlı olması üçün köçkünlərin  işlə təmin edilməsi paralel getməlidir. Məşğulluğu təmin edəcək kənd təsərrüfatı və məhsullarının emal müəssisələrinin və xidmət obyektlərin yaradılması ümumi bir konsepsiya əsasında aparılmalıdır.

Cədvəl 11. 2025-ci ildə dövlət hesabına yaşayış sahəsi ilə təmin olunan ailə və ailə üzvlərinin sayı,

| **Ölkə üzrə, cəmi** | **Ailələrin sayı** | **Ailə üzvlərinin sayı, nəfər** |
|---|---|---|
| | **4 370** | **17 546** |
| **Qarabağ iqtisadi rayonu cəmi** | **3 017** | **11 951** |
| **Şərqi-Zəngəzur iqtisadi rayonu  cəmi** | **984** | **4224** |

Mənbə:Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır.

Ölkə üzrə  2025-ci ildə dövlət hesabına 4370 ailənin 17546 üzvu yaşayış sahəsi ilə təmin olunmuşdur.Yaşayış sahəsi ilə təmin olunanların ailə sayı üzrə 69 faizi və ya 3017 ailə Qarabağ iqtisadi rayonunun, 22.5 faiz və ya 984 ailə Şərqi-Zəngəzur iqtisadi rayonunun payına düşür.Ailə üzvlərinin sayına görə  68.1 faizi və ya 11951 nəfər Qarabağ iqtisadi rayonu, 24.08 faizi və ya 4224 nəfər isə Şərqi-Zəngəzur iqtisadi rayonu sakinləridir.

Prezident İlham Əliyevin 2025-ci il 30 may tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2027-2030-cu illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanmasına başlanılmışdır. Bu Sərəncamda qeyd edilir ki, I Dövlət Proqramının uğurlu icrası ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaratmışdır.

"Böyük Qayıdış" proqramının əsas elementləri aşağıdakılardan ibarətdir:

- Ağıllı şəhər və ağıllı kənd konsepsiyası: yaşayış məntəqələrinin ən müasir texnologiyalar əsasında qurulması
- Yaşıl enerji zonası: işğaldan azad edilmiş ərazilərin bərpa olunan enerji mənbələri hesabına enerji təminatı
- Sənaye parklarının yaradılması: Ağdam Sənaye Parkı, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı
- Nəqliyyat-logistika infrastrukturu: Zəngəzur dəhlizi, yeni hava limanları və dəmir yolu xətləri
- Məşğulluq siyasəti: "Məşğulluqdan məskunlaşmaya" (Employment Before Resettlement) prinsipi əsasında fəaliyyət

Cədvəl 12. 2026-cı ilin 9 iyul tarixinə olan məlumata görə,azad olunmuş torpaqlara yaşayış məntəqələri üzrə köçən məcburi köçkünlərin sayı, nəfərlə

| Rayonlar və kəndlər | Ailə | Nəfər | Rayonlar və kəndlər | Ailə | Nəfər |
|---|---|---|---|---|---|
| Ağdam | 814 | 3001 | Laçın | | |
| Kəngərli | 290 | 1247 | Laçın | 614 | 2264 |
| Sarıcalı | 190 | 798 | Bəylik | 89 | 363 |
| Xıdırlı | 654 | 2601 | Zabux | 217 | 823 |
| | | | Sus | 59 | 215 |
| Ağdərə | | | | | |
| Aşağı Orataq | 101 | 467 | Füzuli | | |
| Vəngli | 145 | 576 | Füzuli | 827 | 3153 |
| Həsənriz | 286 | 1133 | | | |
| Kolataq | 33 | 120 | Xankəndi | | |
| Suqovuşan | 180 | 592 | Xankəndi | 54 | 230 |
| Talış | 20 | 90 | Kərkicahan | 43 | 174 |
| Heyvalı | 46 | 205 | | | |
| Çapar | 40 | 143 | Xocavənd | | |
| Çıldıran | 41 | 165 | Xocavənd | 393 | 1533 |
| | | | Hadrut | 82 | 347 |
| Cəbrail | | | Qırmızı Bazar | 211 | 900 |
| Cəbrail | 676 | 2931 | Sos | 85 | 360 |
| Horovlu | 316 | 1306 | Xanoba | 39 | 177 |
| Şükürbəyli | 514 | 2254 | Xocavənd | 73 | 302 |
| | | | | | |
| Zəngilan | | | Xocalı | | |
| Zəngilan | 84 | 339 | Xocalı | 144 | 651 |
| Ağalı | 234 | 1017 | Badara | 103 | 387 |
| Məmmədbəyli | 179 | 903 | Ballıca | 246 | 1088 |
| | | | Daşbulaq | 42 | 162 |
| Kəlbəcər | 162 | 681 | Seyidbəyli | 76 | 277 |
| | | | Təzə Binə | 171 | 785 |
| Şuşa | | | Xanabad | 101 | 439 |
| Şuşa | 377 | 1411 | Xanyurdu | 140 | 510 |
| Böyük Qaladərəsi | 17 | 78 | Şuşakənd | 116 | 436 |
| **CƏMİ** | **9324** | **37634** | | | |

Mənbə:https://t.me/s/MaidenTower

Burada göstərilənlərə azad edilmiş ərazilərdə çalışan kommunal,tikinti, tibb və hüquq-mühafizə orqanlarının işçiləri, eləcə də Qarabağ Universitetinin tələbələri və professor- müəllim heyəti daxil deyil. Ümumilikdə, Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır.Bu isə bu

ilin axırına planlaşdırılan təxminən 140.000 məcburi köçkünün azad olunmuş torpaqlara köçürülməsinin şübhə altına alır.

Bütün maliyyə mınbələri nəzərə alındıqda azad edilmiş ərazilərə yönəldilən investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın 3.1.1-ci yarımbəndinin icrası ilə əlaqədar, 2022-2026-cı illərdə 45 000 ailəni əhatə edəcək "Məcburi köçkünlər arasında aparılacaq sosioloji sorğu əsasında əhalinin geri qayıdışı ilə bağlı ilkin proqnozların hazırlanması" məqsədilə 05.01.2023-20.12.2023 hesabat dövrü ərzində sorgu keçirilmişdir.. İlkin mərhələdə salınması nəzərdə tutulmuş yaşayış məntəqələrindən olan və Respublikanın 63 şəhər və rayonu ərazisində məskunlaşmış (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Şuşa, Tərtər, Xocavənd rayonları) əhali arasında 28 818 köçkün ailə (105 170 nəfər olmaqla) arasında sorğular həyata keçirilərək Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin elektron informasiya sisteminə işlənilmişdir. Həmin ailələrdən 26 567 -, yəni 99 079 nəfəri qayıtmaq istəyən, 812 ailə, yəni 2 508 nəfəri müxtəlif səbəblərdən qayıtmaq istəməyən, qayıtmaq istəyi qeyri müəyyən olan ailələr isə 1 440, yəni 3 583 nəfər olmuşdur. Həmçinin, köçməyə razı olan 59 177 məcburi köçkün, yəni 15 749 nəfərlə Komitə arasında ilkin razılaşma protokollarının, qayıtmaq istəməyən 277-si (898 nəfər olmaqla) imtina protokolları imzalamışdır.

Cədvəl 13. Qayıtmaqla bağlı sorğu tarixi 05.01.2023-20.12.2023

| | İştirakçı ailələr | | İştirakçılar, nəfər | | İştirakçıəlraın sayı,faizlə |
|---|---|---|---|---|---|
| | Sayı | Faiz | Sayı | Faiz | |
| İştirakçıların sayı | 28818 | 100 | 105170 | 100 | 100 |
| Qayıtmaq istəyənlər | 26567 | 92,2 | 99079 | 94,2 | 94,2 |
| Qayıtmaq istəməyənlər | 812 | 2,8 | 2508 | 2,4 | 2,4 |
| Qeyri- müəyyənlər | 1440 | 5,0 | 3583 | 3,4 | 3,4 |

https://idp.gov.az/az/law/142/parent/15

Geri qayıdışa maraq daha geniş mənada,məcburi köçkünlərin dolanışıqlarını təşkil eməklə, təhlükəsizlik, səhiyyə, təhsil və digər kritik infrastrukturların inkişaf səviyyəsi ilə yanaşı, Dünya Bankının keçirdiyi sorğulara əsasən qayıtmağa maraq yaş, təhsil, peşə sektorlarından və gəlir səviyyəsindən asılıdır.Gənc məcburi köçkünlər - əksəriyyəti köçkünlükdən sonra doğulanlar - yaşlı ailə üzvlərinə nisbətən ailələrinin mənşə bölgəsinə qayıtmaqda xeyli az maraqlıdırlar(Şəkil 3).

Şəkil 4.Qayıdışa maraq göstərməyənlərin yaş qrupları, faizlə




Mənbə: www.worldbank.org

25 yaşdan kiçik insanların dörddə biri və 25-39 yaş arası insanların 19%-i mənşə bölgələrinə daimi qayıtmaqda maraqlı olmadığını bildirib. Bunun əksinə olaraq, 40-60 yaş arası insanların yalnız 10%-i və 60 yaşdan yuxarı insanların 11%-i qayıtmaqda maraqlı olmadığını bildirib. Bunun əksinə olaraq, 60 yaşdan yuxarı insanların 84%-i mümkün qədər tez qayıdacaqlarını, 25 yaşdan kiçik insanların isə yalnız 65%-i

mütləq qayıdacaqlarını bildirib.Qayıdışa maraq təkcə yaşla bağlı deyil, həm də indiki yaşadıqları yerdə sosial vəziyyətləri ilə də bağlıdır.

Şəkil 5. Peşələr üzrə mütləq qayıtmaq istəyənlər, faizlə




Mənbə: [www.worldbank.org](http://www.worldbank.org)

Təhsil, səhiyyə və informasiya-kommunukasiya texnologiyaları sahəsində çalışanlar qayıtmağa daha az maraq göstərirlər.Səhiyyə və sosial xidmət sahəsində çalışanların 59 faizi və informasiya-kommunikasiya texnologiyaları sahəsində çalışanların 61 faizi,istehsalatda çalışanların 97 faizi, tikintidə çalışanların 93 faizi,kənd təsərrüfatı, meşə və balıqçılq sektorunda çalışanların 92 faizi mütləq qayıdacağını bildirmişlər.

**5. "Böyük Qayıdış - Məşğulluqdan məskunlaşmaya!"**

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına daimi məskunlaşması prosesini təmin etmək məqsədilə həyata keçirilən strateji dövlət proqramıdır. O, vətəndaşların məşğulluğunun təmin edilməsini həmin ərazilərə qayıdışın əsas sütunu kimi müəyyən edir. 2023-cü ilin 1 yanvar tarixindən etibarən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün birdəfəlik 600 manat sosial müavinət və işğaldan azad olunmuş ərazilərdə peşə hazırlığının təşkilinin stimullaşdırılması üçün müəyyən olunmuş adambaşına maliyyələşdirmə məbləğlərinə 20% əlavə təyin edilib. 2025-ci ildə 130 mindən çox şəxsin məlumatları elektron təhlil edilib, məskunlaşacaq ailələrlə köçdən əvvəl görüşlər keçirilib, onların məşğulluq imkanları qiymətləndirilib, fərdi məşğulluq proqramları tərtib olunub, 14 mindən çox şəxslə müsahibələr aparılaraq işəgötürənlərlə əlaqələndirilibdir. Ümumilikdə 6 169 nəfər ixtisassız şəxs təlimlərə, onlardan 3128 nəfər peşə hazırlığı, 3041 nəfər BƏT-in "Öz biznesinə başla və inkişaf etdir" təlimlərinə cəlb olunub.

2020–2024-cü illər ərzində Azərbaycan Respublikasında işçi qüvvəsinin sayı davamlı 4,37 faiz artımla işçi qüvvəsi 2020-ci ildə təxminən 5.1 milyon nəfərdən 2024-cü ildə 5.3 milyon nəfərə yüksəlmiş. Bu artım ölkədə əmək bazarının genişlənməsi, iqtisadi fəallığın yüksəlməsi və əmək qabiliyyətli əhalinin sayının artması ilə izah edilə bilər.

Cədvəl 14. İqtisadi rayonlar üzrə işçi qüvvəsinin sayı (ilin sonuna), nəfər

| İqtisadi rayonlar | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 5 089 850 | 5 141 564 | 5 194 362 | 5 249 723 | 5 312 099 |
| Qarabağ iqtisadi rayonu | 355 965 | 359 603 | 364 332 | 369 198 | 377 155 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 136 949 | 139 415 | 140 832 | 142 506 | 145 148 |

Mənbə:AR Statistika Komitəsi

Təhlil göstərir ki, 2020–2024-cü illərdə həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonlarında işçi qüvvəsinin sayı sabit artım meyli nümayiş etdirmişdir. Artım tempinin ölkə üzrə orta göstəricidən yüksək olması bu regionlarda həyata keçirilən dövlət siyasətinin, infrastruktur layihələrinin, investisiya proqramlarının və əhalinin mərhələli məskunlaşdırılmasının əmək bazarına müsbət təsir göstərdiyini təsdiq edir. Bununla yanaşı, işçi qüvvəsinin sayındakı artımın gələcək dövrdə davamlı məşğulluğa çevrilməsi üçün yeni istehsal sahələrinin yaradılması, özəl investisiyaların təşviqi, peşə hazırlığı proqramlarının

genişləndirilməsi və əmək bazarının tələblərinə uyğun insan kapitalının inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlər regionlarda iqtisadi aktivliyin və məşğulluğun davamlı inkişafını təmin edən əsas amillərdən biri olacaqdır.

Əmək bazarının inkişaf səviyyəsinin qiymətləndirilməsində məşğulluğun iqtisadi fəaliyyət növləri üzrə bölgüsü və işsizlik səviyyəsinin dinamikası əsas indikatorlar hesab edilir. Təqdim olunan şəkil 4-də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarının struktur xüsusiyyətlərini, iqtisadi fəaliyyət sahələrinin məşğulluğa təsirini müəyyən etməyə imkan verir.

Şəkil 4. 2025-ci ilin yanvar ayının 1- i vəziyyətinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonı üzrə 6 əsas iqtisadi fəaliyyət sahələrində məşğul əhalinin sayı, min nəfər




Mənbə:AR Statistika Komitəsi

Hər iki iqtisadi rayon üzrə məşğulluğun sahə strukturu göstərir ki, əmək bazarı əsasən aqrar sektor**,** tikinti**,** ticarət**,** təhsil**,** dövlət idarəçiliyi **və** nəqliyyat sahələri üzərində formalaşmışdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ümumi məşğul əhalinin ən böyük hissəsi kənd təsərrüfatında çalışır. Belə ki,bu sahədə Qarabağda 50.6 faizi və ya 178,1 min nəfər, Şərqi Zəngəzurda 39 faizi və ya 52.4 min nəfər məşğuldur ki, bu da regionların bütün sahələri arasında ən yüksək göstəricidir. İkinci yerdə ticarət və nəqliyyat vasitələrinin təmiri (35,1 və 18.7 min nəfər)**,** üçüncü yerdə təhsil (27,3 və 17.3 min nəfər)**,** daha sonra tikinti (20,5 və 12.2 min nəfər) **və** dövlət idarəetməsi (16,4 və 5.4 min nəfər) gəlir.

Bu göstəricilər onu göstərir ki, hər iki iqtisadi rayonun əmək bazarında kənd təsərrüfatı sektoru hələ də dominant mövqeyini qoruyur. Bu isə iqtisadiyyatın struktur transformasiyasının tam başa çatmadığını göstərən əsas əlamətlərdən biridir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatında çalışanların sayı emal sənayesində çalışanlardan təxminən uyğun olaraq 23 və 14 dəfə, tikintidə çalışanlardan isə uyğun olaraq 8,7 və 4.5 dəfə çoxdur.

Bu nəticələrə əsasən , kənd təsərüfatında məşğulluq regionların iqtisadi inkişafının mənbəyidir. Bunun əsas səbəbləri aşağıdakılardır:

- kənd təsərrüfatı torpaqlarının genişliyi;
- kənd yaşayış məntəqələrinin üstünlük təşkil etməsi;
- əhalinin ənənəvi məşğulluq strukturu;
- dövlətin aqrar sektora subsidiyaları;
- işğaldan azad olunmuş torpaqlarda kənd təsərrüfatının prioritet inkişaf istiqaməti kimi müəyyənləşdirilməsi.

Lakin inkişaf etmiş iqtisadiyyatlarda məşğulluğun əsas hissəsi xidmət və yüksək texnologiyalar sektorunda formalaşdığından, aqrar sektorun bu qədər yüksək payı iqtisadiyyatın diversifikasiya səviyyəsinin məhdud olduğunu göstərir.

Tikinti sektoru Qarabağ iqtisadi rayonunda 20,5 min, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 12,2 min nəfəri məşğulluqla təmin edir. Bu göstəricilər ölkənin digər regionları ilə müqayisədə kifayət qədər yüksək hesab oluna bilər. Bunun əsas səbəbi:

- yaşayış məntəqələrinin yenidən qurulması;
- avtomobil yollarının tikintisi;

- enerji və kommunal infrastruktur layihələrinin həyata keçirilməsidir.

Tikinti sektorunda yüksək məşğulluq müvəqqəti xarakter daşıyır. İnfrastruktur layihələri başa çatdıqdan sonra bu işçi qüvvəsinin digər sahələrə yönəldilməsi zərurəti yaranacaqdır. Bu baxımdan emal sənayesinin və xidmət sektorunun inkişafı strateji əhəmiyyət kəsb edir.

Qarabağ iqtisadi rayonunda emal sənayesində cəmi 7,7 min nəfər, Şərqi Zəngəzurda isə 5 min nəfər çalışır.

Bu göstəricilər regionların sənaye potensialının hələ tam formalaşmadığını göstərir. Halbuki uzunmüddətli iqtisadi inkişaf baxımından:

- yüksək məhsuldarlıq,
- ixrac potensialı,
- yüksək əməkhaqqı,
- innovasiya

məhz emal sənayesində formalaşır.

Bu baxımdan sənaye parklarının genişləndirilməsi əmək bazarının keyfiyyətinin yüksəldilməsi üçün vacib istiqamətlərdən biridir.

Qarabağ iqtisadi rayonunda informasiya və rabitədə cəmi 1,7 min nəfər, Şərqi Zəngəzurda isə 0,5 min nəfər çalışır.

Maliyyə sektorunda isə hər iki rayonda məşğulluq 2 min nəfərdən azdır.

Bu struktur göstərir ki, regionların iqtisadiyyatı hələ bilik iqtisadiyyatı mərhələsinə keçməmişdir.

2015-2019- cu illərdə ölkə üzrə işsizlik səviyyəsi 5% səviyyəsində stabil qalsada Qarabağ və Şərqi Zəngər iqtisadi rayonlarında işsizlik səviyyəsində artım müşahidə olmuşdur(Cədvəl 14).

Cədvəl 14.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlar üzrə işsizlik səviyyəsi, faizlə

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 5,0 | 5,0 | 5,0 | 4,9 | 5,0 | 7,2 | 6,0 | 5,6 | 5,5 | 5,3 |
| Qarabağ iqtisadi rayonu | 5,0 | 5,1 | 4,8 | 4,9 | 5,6 | 8,2 | 6,8 | 6,3 | 6,2 | 6,7 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 6,0 | 6,1 | 6,1 | 6,4 | 6,8 | 9,9 | 8,4 | 7,9 | 7,6 | 7,4 |

Mənbə: AR Statistika Komitəsi

Belə ki, Qarabağ iqtisadi rayonunda həmin dövrdə işsizlik səviyyəsi 12 faiz, Şərqi Zəngəzur iqtisadi rayonunda 11.3 faiz artım qeydə alınmışdır.2020-ci ildə pandemiya ilə əlaqədar olaraq ölkə üzrə işsizlik səviyyəsi 7.2 faiz, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda isə 8.2 faiz və 9.9 faiz təşkil etmişdir.Post-pandemiya döründən başlayaraq, 2021-2024-cü illərdə ölkə üzrə işsizlik səviyyəsi azalmağa başlamışdır. 2021-ci ildə 2020-ci illə müqayisədə ölkə üzrə 16.6 faiz azalaraq 6 faizə düşmüş və həmin dövrdə Qarabağ və Şərqi Zəngəzurda iqtisadi rayonlarında uyğun olaraq, 17.1faiz və 15.2 faiz azalaraq, 6.8 faiz və 8.4 faiz olmuşdur.

2021-ci ildən etibarən genişmiqyaslı tikinti-quruculuq işləri və "Böyük Qayıdış" proqramları fonunda işsizlik sürətlə enməyə başlamışdır. Lakin 2024-cü ildə Qarabağda işsizlik səviyyəsi yenidən cüzi artaraq 6.7% təşkil etmişdir ki, bu da regiona əhalinin köçürülməsi sürətinin yerli əmək bazarının yeni iş yerləri yaratmaq tempini qabaqlaması ilə izah oluna bilər.

2024-cü ildə ölkə üzrə 91718, 2025-ci ildə isə 2024-cü illə müqayisədə 11.7 faiz və ya 10787 çox yen 102505 yeni iş yerləri açılmışdır(Cədvəl 15). 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurda yeni açılan iş yerləri ölkə üzrə yeni açılan iş yerlərinin uyğun olaraq 2.5 və 1.04 faizini, 2025-ci ildə isə 2.3 və 0.8 faizini təkil etmişdir.

Cədvəl 15.İqtisadi rayonlar üzrə yeni açılmış iş yerlərinin sayı,

| | 2024 | 2025 |
|---|---|---|
| Azərbaycan Respublikası üzrə - cəmi | 91718 | 102505 |
| Qarabağ iqtisadi raqyonu-cəmi | 2266 | 2361 |
| Şərqi Zəngəzur iqtisadi rayonu- cəmi | 953 | 854 |

Mənbə: AR Statistika Komitəsi

2025-ci ildə 2024-cü illə müqayisədə Qarabağ iqtisadi rayonunda 95 və ya 4.2 faiz çox, iş yerləri açılmışdır. Bu da, regionda iqtisadi canlanmanın və məskunlaşmanın davamlı olduğunu göstərir. Yeni müəssisələr və dövlət layihələri hər il stabil olaraq 2300-dən çox yeni vakansiya formalaşdırır. 2025-ci ildə ondan əvvəlki illə müqayisədə Şərqi Zəngəzur iqtisadi rayonunda 99 və ya 10.4 faiz az yeni iş yerləri yaradılmışdlr. Bu azalma regionda iş yerlərinin bağlanması demək deyil. Bu, sadəcə yeni iş yeri açılma sürətinin (tempinin) bir qədər zəifləməsini göstərir. İki ilin cəminə baxsaq, regionda toplam 1807 yeni iş yeri yaradılıb. İlk illərdəki kütləvi infrastruktur və tikinti layihələrinin pik nöqtəsi keçdikdən sonra iş yeri yaradılması prosesinin daha sabit faza keçməsi normal iqtisadi qanunauyğunluqdur.

Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğunun öyrənilməsinə dair statistik müayinənin aparılması üçün Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təqdim edilmiş 2021-2024-cü illərdə peşə və orta ixtisas təhsili müəssisələrinin məzunları barədə məlumatlar əsasında Azərbaycan Respublikası Statistika Komitəsi tərəfindən seçmə müaynə aparılmışdır. Seçmə şəbəkəsinin formalaşdırılması ölkənin hər bir inzibati rayon və şəhərləri üzrə keçirilmişdir. Müayinə nəticəsində peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair cins, yaş qrupları, iqitisadi fəaliyyət sahələri və s. göstəricilər bölgüsündə məlumatların mövcudluğu məzunlarının əmək bazarında iştirakı vəziyyətinin statistik qiymətləndirilməsinə imkan verir.

Cədvəl 16. Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının iqtisadi rayonlar və inzibati ərazi vahidləri və cins üzrə say bölgüsü,2021-2024-cü illər

| İqtisadi və inzibati rayonlar | İşçi qüvvəsi | | o cümlədən: Məşğul | | o cümlədən: İşsiz | | İşçi qüvvəsinə daxil olmayanlar | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | onlardan qadınlar | Cəmi | onlardan qadınlar | Cəmi | onlardan qadınlar | Cəmi | onlardan qadınlar |
| **Cəmi** | 99480 | 42206 | 87829 | 36610 | 11651 | 5596 | 17002 | 9778 |
| **Qarabağ iqtisadi rayonu** | 8229 | 3467 | 7291 | 2980 | 938 | 487 | 1436 | 778 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | 2608 | 1087 | 2318 | 970 | 290 | 117 | 426 | 256 |

Mənbə: AR Statistika Komitəsi

2021-2024-cü illərdə Qarabağ iqtisadi rayonunda peşə və orta ixtisas təhsili müəssisələrinin məzunları üzrə işçi qüvvəsinin sayı 8229 nəfər təşkil etmişdir. Bunlardan 7291 nəfəri və ya 88.6 faizi məşğul, 938 nəfəri və ya 11.4 faizi isə işsizdir . Regionda işçi qüvvəsinin 42.1faizi, məşğul olan məzunların 40.9faizi, işsizlərin 52 faizini və işçi qüvvəsinə daxil olmayanların 54.2 faizini qadınlar təşkil edir.

Şərqi Zəngəzur iqtisadi rayonunda isə peşə və orta ixtisas təhsili müəssisələrinin işçi qüvvəsinin sayı 2608 nəfər, məşğul olanların 88.8 faizi və ya 2318 nəfəri məşğul məzunları təşkil edir. İşçi qüvvəsinin 41 faizi, məşğul olanların 41.8 faizi və işçi qüvvəsinə daxil olmayanların 60.1 faizini qadınlar təşkil edir.

Cədvəl 17. Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə say bölgüsü, 2021-2024-cü illər

| İqtisadi və inzibati rayonlar | İşçi qüvvəsi, nəfər | o cümlədən: Məşğul | o cümlədən: İşsiz | İqtisadi fəallıq səviyyəsi, faizlə | Məşğulluğun səviyyəsi, faizlə | İşsizliyi səviyyəs, faizlə |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | 99480 | 87829 | 11651 | 85.4 | 75.4 | 11.7 |
| **Qarabağ iqtisadi rayonu** | 8229 | 7291 | 938 | 85.1 | 75.4 | 11.4 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | 2608 | 2318 | 290 | 86.0 | 76.4 | 11.1 |

Mənbə: AR Statistika Komitəsi

2021-2024-cü illərdə Qarabağ iqtisadi rayonu üzrə peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının iqtisadi fəalliq səviyyəsi 85.1 faiz, məşğulluq səviyyəsi 75.4 faiz və işsizlik səviyyəsi isə 11.4 faiz təşkil

etmişdir.Qeyd edilən dövrdə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə məzunların iqtisadi fəallığı 86 faiz, məşğulluq səviyyəsi 76.4 faiz və işsizlik səviyyəsi isə 11.1 faiz olmuşdur.

Təhlil göstərir ki, peşə və orta ixtisas təhsili müəssisələrinin məzunları arasında iqtisadi fəallıq səviyyəsi (85,4%) və məşğulluq səviyyəsi (75,4%) yüksəkdir. Bu göstəricilər peşə təhsilinin əmək bazarının tələblərinə cavab verən insan kapitalının formalaşdırılmasında mühüm rol oynadığını təsdiqləyir. Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi fəallıq (86,0%) və məşğulluq (76,4%) göstəricilərinin daha yüksək olması Böyük Qayıdış çərçivəsində həyata keçirilən investisiyaların və yeni iqtisadi fəaliyyətlərin əmək bazarına müsbət təsirinin empirik sübutu kimi qiymətləndirilə bilər. Eyni zamanda qadınların işçi qüvvəsində təxminən 42%-lik paya malik olması peşə təhsilinin inklüziv xarakter daşıdığını göstərsə də, xüsusilə Qarabağ iqtisadi rayonunda qadın işsizliyinin yüksək payı gender yönümlü məşğulluq siyasətlərinin gücləndirilməsini zəruri edir. Bu baxımdan peşə təhsili sistemi işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi reinteqrasiyasında və dayanıqlı regional inkişafın təmin edilməsində strateji alət kimi çıxış edir.

2020–2024-cü illərdə Azərbaycan Respublikasında orta aylıq nominal əməkhaqqı davamlı artım nümayiş etdirərək  ölkə üzrə orta əməkhaqqı 707,7 manatdan 1009,4 manata yüksəlmişdir. Beləliklə, beş il ərzində minimum əmək haqqının artımı,iqtisadi artım, infilyasiya və əmək bazarında  əmək məhsuldarlığının yüksəlməsi orta nominal əməkhaqqı 301,7 manat və ya 42,6 faiz artımına səbəb olmuşdur (Şəkil 5).

Şəkil 5. İqtisadi rayonlar  üzrə orta aylıq nominal əməkhaqqı illər üzrə, manat




Mənbə:  AR Statistika Komitəsi

2020-2024-cü illərdə Qarabağ iqtisadi rayonunda da orta aylıq nominal əməkhaqqının 57.4 faiz artıma 235.4 manat artaraq 409.9 manatdan 645.3 manata davamlı artımı müşahidə edilmişdir. Artım tempi respublika üzrə orta artım göstəricidən 42,6 faiz yüksək olsa da, rayon üzrə əməkhaqqının səviyyəsi ölkə ortalamasından aşağı olaraq qalmışdır. 2024-cü ildə Qarabağ iqtisadi rayonunda orta əməkhaqqı ölkə üzrə orta göstəricinin cəmi 63,9 faizinini təşkil etmişdir. Bu fərq regionda iqtisadi fəaliyyətin hələ tam formalaşmaması, özəl sektorun məhdud inkişafı və məşğulluğun əsasən tikinti, dövlət idarəçiliyi və sosial xidmət sahələrində cəmləşməsi ilə izah oluna bilər.

Şərqi Zəngəzur iqtisadi rayonunda orta aylıq nominal əməkhaqqı 2020-2024-cü illərdə 43.7 faiz və ya mütləq ifadədə 218.6 artmaqla  500,3 manatdan 718,9 manata çatmışdır.  2021-ci ildə orta aylıq nominal əməkhaqqı 3.5 faiz və ay 17.6 manat  azalaraq 482,7 manata enmiş, lakin sonrakı illərdə sürətli artımını bərpa etmişdir.  2022–2024-cü illərdə həyata keçirilən infrastruktur layihələri, dövlət investisiyalarının artması və iqtisadi aktivliyin genişlənməsi nəticəsində əməkhaqqında əhəmiyyətli yüksəliş qeydə alınmışdır.

Təhlil göstərir ki, azad edilmiş ərazilərdə iqtisadi fəallığın artması, iqtisadiyyatın qeyri-neft sektoru inkişaf etdikcə, kölgə iqtisadiyyatının daralması və əməkhaqlarının yüksəlməsinə müsbət təsir göstərir.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında orta əməkhaqqı səviyyəsinin ölkə üzrə orta aylıq nominal əməkhaqqına yaxınlaşması üçün yüksək əlavə dəyər yaradan sənaye müəssisələrinin yaradılması, daha çox özəl investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun inkişafı və yüksək texnologiyalı iş yerlərinin sayının artırılması vacibdir**.** Uzunmüddətli perspektivdə bu tədbirlər regionlarda əmək bazarının rəqabət qabiliyyətini artıracaq, əhalinin gəlirlərinin yüksəlməsinə və dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edəcəkdir.

## 6. Nəticə və Təkliflər

2016-2026-cı illər Azərbaycanda məcburi köçkün siyasətində köklü transformasiya dövrü olmuşdur. 2016-2020-ci illərdə aktiv sosial müdafiə modeli ilə xarakterizə olunan siyasət, 2020-ci il Vətən Müharibəsindən sonra "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində aktiv məşğulluq, peşə hazırlığı, özünüməşğulluq və dayanıqlı gəlir mənbələrinin yaradılmasına yönəlmiş kompleks reinteqrasiya strategiyasına çevrilmişdir.

2026-ci ilə olan məlumatlar göstərir ki:

- İşğaldan azad edilmiş ərazilərdə məşğulluq səviyyəsi 92%-i ötmüşdür
- Dünya Bankı ilə birgə layihə çərçivəsində 800-dən çox məcburi köçkün peşə təlimlərində iştirak etmişdir
- Qayıdanların işlə təmin olunduğu 546 sahibkarlıq obyekti fəaliyyət göstərir
- 2026-cı ilin sonuna qədər planlaşdırılan 140,000 keçmiş məcburi köçkünün qayıdışı mümkün olmayacaq

Bununla belə, bir sıra problemlər davam edir: gənclər arasında qayıdış motivasiyasının aşağı olması, kənd təsərrüfatı bacarıqlarının qeyri-kafiliyi, rəqəmsal savadlılıqda gender fərqi, maliyyə inklüzivliyinin məhdudluğu və demoqrafik tarazlığın təmin edilməsində çətinliklər. Bu problemlərin həlli üçün insan kapitalına investisiya, özünüməşğulluğun dəstəklənməsi, institusional inkişaf və mərhələli sosial müdafiə siyasətini özündə birləşdirən kompleks yanaşma tələb olunur.

Aparılmış təhlilə əsasən, keçmiş məcburi köçkünlərin məşğulluq və gəlir imkanlarının yaxşılaşdırılması üçün aşağıdakı təkliflər təqdim edilir:

### 1. İnsan Kapitalına İnvestisiya

- **Məqsədli peşə təlimi proqramları**: Qarabağın inkişaf etdirilməsi planlaşdırılan sektorlarına (kənd təsərrüfatı, turizm, tikinti, İKT, bərpa olunan enerji) uyğun peşə təlimi modulları hazırlanmalıdır. Xüsusilə, kənd təsərrüfatına maraq göstərən, lakin təcrübəsi olmayan əhali üçün intensiv təlim proqramları təşkil etmək.
- **Rəqəmsal savadlılığın artırılması**: Xüsusilə kənd yerlərində məskunlaşacaq əhali üçün dövlət-elektron xidmətləri, mobil bankçılıq, onlayn marketinq və elektron ticarət bacarıqlarını artıran təlim proqramları təşkil etmək.
- **Gənclərin cəlb edilməsi**: 25 yaşdan aşağı gənclərin yalnız 65%-nin qayıdışda qərarlı olması faktını nəzərə alaraq, gənclər üçün xüsusi təqaüd proqramları, təcrübə keçmə imkanları və peşəkar inkişaf proqramları təklif etmək

### 2. Özünüməşğulluq və mikro-sahibkarlıq

- **Mikro-maliyyə inklüzivliyinin genişləndirilməsi**: Mikromaliyyə xidmətlərindən istifadə edənlərin cəmi 8% olması bu sahədə ciddi boşluğun olduğunu göstərir. Güzəştli şərtlərlə startap kapitallarının verilməsi, sahibkarlar üçün xüsusi maliyyə alətlərinin yaradılması tövsiyə olunur.
- **Heyvandarlığın,intensiv bağçılığın və arıçılığın inkişaf etdirilməsi:** Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası və iqlimi heyvandarlığın, intesiv bağçılığın və arıçılığın inkişaf etdirilməsinə imkan verir. Bu sahəyə marağı olanların ilk olaraq, kurslara cəlb edərək nəzəri bilik və bacarıqlarının artırılmasını təmin etmək. Sonradan isə fəaliyyətlərinə uyğun olaraq lazımi dəstəklərin göstərilməsi. Buraya tövlələrin

tikilməsi üçün torpaq sahəsi və inşaat materialları,otlaq, örüş və bağ yerlərinin ayrılması, ot biçimi və digər işlərin görülməsi üçün texnika, heyvanlar, tinglər, arı ailələri və yeşikləri, lazım olan digər vasitələrlə təmin etmək.

- **Kənd turizminin inkişafı**:Turizm potensialı yüksək olan kəndlərdə qonaq evlərinin, ictimai iaşə və yerli əhalinin sənətkarlıq işlərinin sərgi-satış obyektlərinin təşkil edilməsi.

### 3. İnstitusional İnkişaf

- **Elm-istehsalat inteqrasiyası**: Qarabağ Universiteti, Ağdam Sənaye Parkı və UNEC arasında "elm-istehsalat-biznes" üçbucağı modeli əsasında təhsil klasteri yaradılmalıdır. Bu, yerli istehsalın tələblərinə cavab verən ixtisaslı kadr hazırlığını təmin edəcəkdir.
- **Dövlət-özəl sektor əməkdaşlığı**: Azad edilmiş ərazilərdə əlavə iş yerlərinin yaradılması üçün özəl sektorun daha fəal iştirakını təmin edilməsi. Məcburi köçkünlərin işlə təmin edən və istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara hər ay istehlak etdiyi kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 50 faizi məbləğində güzəşt tətbiq edilməklə, keçmiş məcburi köçkünləri işə götürən müəssisələr üçün əlavə stimulların yaradılması.

### 4. Sosial Müdafiə

- **Müavinətlərin tədricən azaldılması**: Ailələrin müavinətlərdən yüksək dərəcədə asılı olduğunu nəzərə alaraq, müavinətlərin tədricən azaldılması prosesi ailələrin maliyyə müstəqilliyini təmin edən tədbirlərlə müşayiət olunmalıdır.

### 5. Pay torpaqlarının verilməsi

- Məcburi köçkünlərə yaşayış sahələrini icarə əsasında deyil, mülkiyyət hüququ əsasında verilməsi ilə yanaşı, 5 ildən artıq əkinçilik,heyvandarlıq,bağçılıq, arıçılıq və s.kənd təssərrüfatı ilə məşğul olanlara istifadə etdiyi torpağın müəyyən bir hissəsinin onların mülkiyyətinə verilməsini təmin etmək. Bunula, da keçmiş məcburi köçkünlər yeni yaşayış yerlərində daimi məskunlaşaraq mülkiyyətçi olmaqla yanaşı,özünüməşğulluq və mikro-sahibkarlıq fəaliyyətləri genişlənərək ölkənin ərzaq təhlükəsizləiyinə də töhfə vermiş olacaqlar.

Azərbaycanın "Böyük Qayıdış" proqramı post-konflikt reinteqrasiyası sahəsində unikal beynəlxalq təcrübə nümunəsi kimi qiymətləndirilə bilər. Lakin onun uzunmüddətli uğuru məskunlaşmanın dayanıqlılığını təmin edən iqtisadi imkanların yaradılması, insan kapitalının inkişaf etdirilməsi və iş yerlərinin yaradılması üçün özəl sektorun daha fəal iştirakını təşkil etməklə məskunlaşmanın dayanıqlığını təmin etmək olar.

## İstifadə Olunmuş Mənbələrin Siyahısı


1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli Sərəncamı: "Azərbaycan Respublikasının 2027-2030-cu illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında. https://president.az/az/articles/view/69040/
2. World Bank. (2023). Internally Displaced Persons in Azerbaijan: Livelihoods, Services and Intentions. Washington, DC: World Bank Group. www.worldbank.org
3. UNHCR. (2024). Global Trends: Forced Displacement in 2023. Copenhagen: UNHCR Global Data Service. https://www.unhcr.org/global-trends-report-2024
4. Dövlət Statistika Komitəsi (2025). İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə məşğul əhalinin sayı. Bakı: www.stat.gov.az.
5. İsmayılov, K. (2024). The Great Return in Azerbaijan: employment connotations and expectations for https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=5155529

6. Dövlət Məşğulluq Agentliyi (2024-2025). Mətbuat xidmətinin məlumatları. Bakı: www.dma.gov.az.
7. Azərbaycan Dövlət İqtisad Universiteti (2022). UNEC Ekspert: Elmi Publisistik Jurnal, #1(11) 2022.
8. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2024-2025). Mətbuat xidmətinin məlumatları. Bakı: www.idp.gov.az.
9. Bayramov, V., Hasanov, R., Gasimova, N. (2021). Perspectives on the Analysis and Development of Social Policies in Azerbaijan. In: Tajmazinani, A.A. (eds) Social Policy in the Islamic World. International Series on Public Policy . Palgrave Macmillan, Cham. https://doi.org/10.1007/978-3-030-57753-7_10
10. Bayramov, V. "Competitiveness in Azerbaijan. Assessing Sectorial Economic Policies." (2014).
11. Trend News Agency (2025). "Azerbaijan's Liberated Territories Boast Nearly Full Employment Rate". 28 noyabr 2025. https://www.trend.az/business/4123236.html
12. Guliyev, F. (2025). "Post-Conflict Resettlement in Karabakh: Rebuilding Livelihoods". Researching Internal Displacement, 13 fevral 2025. https://researchinginternaldisplacement.org/short_pieces/post-conflict-resettlement-in-karabakh-rebuilding-livelihoods/
13. Report.az (2025). "World Bank Representatives Briefed on Azerbaijan's Great Return Initiative". 8 oktyabr 2025. https://report.az/en/foreign-politics/world-bank-representatives-briefed-on-azerbaijan-s-great-return-initiative
14. Internal Displacement Monitoring Centre (2024). Global Report on Internal Displacement 2024. Geneva: IDMC. https://www.internal-displacement.org/global-report/grid2024/
15. OECD (2024), PISA Vocational Education and Training (VET): Assessment and Analytical Framework, PISA, OECD Publishing, Paris, https://doi.org/10.1787/b0d5aaf9-en.
16. Доклад О Человеческом Развитии За 2023–2024 гг. Выход из тупика Переосмысление сотрудничества в поляризованном мире
https://hdr.undp.org/content/human-development-report-2023-24

17. https://president.az/az/articles/view/57883
18. https://president.az/az/articles/view/50474
19. https://mehriban-aliyeva.az/site/activitiesNews/846700?part=activities&spart=speeches
20. https://e-qanun.az/framework/46948
21. https://e-qanun.az/framework/4574
22. https://sfdi.gov.az/options-content
23. https://sfdi.gov.az/neft-fontu-emekdasliq
24. https://sfdi.gov.az/dovlet-banki-birge-emekdaslik
25. https://sfdi.gov.az/haqqinda-yeni
26. https://www.unhcr.org/
27. https://sosial.gov.az/storage/articles/1855719826975147.pdf
28. https://www.maliyye.gov.az/static/153/dovlet-budcesinin-icrasina-dair-illik-hesabat
29. https://www.trend.az/business/4031357.html
32. https://www.bp.com/en_az/azerbaijan/home/community.html#accordion_1
33. https://t.me/s/MaidenTower
34. https://arxkom.gov.az/en/sehersalma/interaktiv-xerite
35. https://www.oilfund.az/fund/about/history